# Azərbaycan Respublikasının 2014-cü il dövlət və icmal büdcələri üzrə

# Vətəndaşın büdcə bələdçisi

**Azərbaycan Respublikası Maliyyə Nazirliyi**

Bakı - 2013

## M ü n d ə r i c a t


| | |
|---|---|
| Oxucuya müraciət | 2 |
| 1. Büdcə özündə nəyi birləşdirir? | 4 |
| 2. Büdcəyə pul vəsaiti haradan gəlir – hara gedir | 6 |
| 3. Dövlət büdcəsi layihəsi necə tərtib olunur və özündə hansı mərhələləri birləşdirir | 12 |
| 4. 2014-cü il dövlət büdcəsi | 17 |
| 5. 2014-cü il icmal büdcəsi | 59 |
| 6. Nəticə | 60 |
| 7. Anlayışlar və terminlər | 61 |
| 8. Əks-əlaqə | 64 |

# Oxucuya müraciət

Vətəndaşın büdcə bələdçisinin nəşr olunmasında əsas məqsəd əhalinin büdcə ilə bağlı maartiflәndirilməsi, dövlətin büdcə siyasətinin daha sadə dildə əhaliyə çatdırılımasından ibarətdir.

2014-cü ildə Azərbaycan Respublikasının dövlət büdcəsinin xərcləri 20063,0 milyon manat təşkil edəcəkdir. Gördüyünüz kimi, bu çox böyük məbləğ olmaqla ölkə əhalisinin hər nəfərinə təxminən 2180,7 manat vəsait deməkdir.

Bu vəsaitin müəyyən bir hissəsi sizin dövlət büdcəsinə ödədiyiniz vergilərdən, rüsumlardan, bir hissəsi milli sərvətimiz olan neftin satışından əldə edilən gəlirlərdən, az bir hissəsi isə digər mənbələrdən daxil olur. Həcmindən asılı olmayaraq daxil olan vəsait dövlətin funksiya və vəzifələrinin icrası, ilk öncə əhalinin layiqli həyat səviyyəsini təmin etmək üçün xərclərə yönəldilir. Bu xərclərə büdcə təşkilatlarında çalışan müəllimlərə, həkimlərə, kitabxanaçılara, hakimlərə, deputatlara, alımlərə, hərbçilərə, kənd və meşə təsərrüfatı işçilərinə verilən əmək haqqlarını, pensiya ödənişlərini, əlillərin, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli ilə bağlı xərclərini, ordunun saxlanılmasını, ölkənin təhlükəsizliyinin və əhalinin sağlamlığının qorunmasını, elmin, mədəniyyətin, idmanın inkişafını, yolların, körpülərin tikintisini, tarixi abidələrin bərpası və qorunmasını, kənd təsərrüfatına yardımların edilməsini, sahibkarlığın dəstəklənməsini, ətraf mühitin mühafizəsini, şəhər, qəsəbə və kəndlərin abadlaşdırılmasını, təsərrüfat fəaliyyətini öz vəsaitləri hesabına həyata keçirə bilməyən bir sıra dövlət müəssisələrinə büdcədən yardımların edilməsini və digər sosial və investisiya layihələrini göstərmək olar.

Bununla yanaşı, əyani olaraq dövlət və icmal büdcələrin vəsaitləri hesabına həyata keçirilən, ölkə həyatında önəmli rol oynamaqla, tarixi əhəmiyyət kəsb edən bəzi layihələri diqqətə gətirmək yerinə düşərdi.

Bakı və Sumqayıt şəhərlərinin içməli su təchizatının, Abşeron ərasizində suvarma sisteminin yaxşılaşdırılması məqsədi ilə Oğuz-Qəbələ su kəməri çəkilmiş, Samur-Abşeron suvarma sistemi yenidən qurulmuş, Taxtakörpü su anbarı tikilmişdir. Qeyd olunmalıdır ki, Oğuz-Qəbələ su kəmərinin uzunluğu 266 km, su borusunun diametri 2000 mm, borunun su buraxma qabiliyyəti saniyədə 5 kubmetrə bərabərdir. Samur-Abşeron suvarma kanalının uzunluğu 144,4 km, Taxtakörpü su anbarının həcmi 268,0 mln. $m^3$, həmin mənbənin suyu hesabına işləyəcək yeni tikilmiş su elektrik stansiyasının gücü 25 Mvt-a bərabərdir. Bu layihə hesabına Ceyranbatan su anbarının həcmi 2 dəfə artacaqdır.

Böyük İpək Yolunun bərpasına xidmət edəcək, regional əhəmiyyətə malik olan Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi istiqamətində işlər davam etdirilir.

Nəqliyyat infrasrukrunun inkişafına diqqət artırılaraq, ölkənin bütün çıxış qapıları istiqamətində və daxildə əsas magistral yollar yenidən tikilmiş, digər yolların əsaslı şəkildə bərpası və təmiri həyata keçirilir.

Bakı şəhərində ən işlək nəqliyyat vasitəsi olan və əhalinin ən çox istifadə etdiyi Bakı Metropoliteninin əhatə zonası genişlənmiş, stansiyalarının sayı artırılmışdır.

Ötən illər əhalini ən çox maraqlandıran məsələlərdən olan Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə ödənişlərin verilməsi öz həllini tapmışdır. Belə ki, dövlət büdcəsinin vəsaiti hesabına Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə 2012-ci ilin və cari ilin 9 ayı ərzində 1.621.147 əmanət hesabı üzrə 597,0 mln. manat fərdi birdəfəlik ödəmələr verilmişdir. Bu tədbir dövlətin sosialyönümlü və vətəndaşların maraqlarını özündə birləşdirən siyasətin həyata keçirildiyini və çoxminli əhali təbəqəsinin maddi və maliyyə durumuna, həmçinin ölkə iqtisadiyyatının daha da aktivləşməsinə birbaşa təsir göstərmişdir.

Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli istiqamətində dövlətin müəyyən etdiyi strategiyaya uyğun olaraq məlum hadisələrdən ötən dövr ərzində əsasən icmal büdcədən ayrılmış 4,3 mlrd. manat vəsait hesabına bütün çadır düşərgələri ləğv edilməklə 31,0 min mənzildən ibarət, bütün sosial-texniki infrastruktura malik 77 müasir qəsəbə salınmış, 31,0 min ailənin, yaxud 140,0 min nəfərədək qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraiti yaxşılaşdırılmış, digər sosial problemləri həll edilmişdir.

Dövlət və icmal büdcə vəsaiti hesabına həyata keçirilmiş tədbirlər haqqında çoxlu sayda misallar gətirmək olar.

Hörmətli oxucu!

Sizin büdcə barədə hansı mənbələrdən və hansı səviyyədə məlumatınız var? Əgər cavabınız “çox da məlumatlı deyiləm”sə, bu çox da təəccüblü deyil. Hər ilin dövlət büdcəsinin zərfi böyük və tutumlu sənədlər toplusundan, yüzlərlə səhifəlik materiallardan ibarətdir və bu sənədləri öyrənmək həddindən çox vaxt və xüsusi profesionallıq tələb edir.

Bununla yanaşı, başa düşüləndir ki, Sizin hər biriniz dövlətin büdcə vasitəsi ilə xərclənən pulların istiqamətləri barədə geniş məlumat əldə etməkdə maraqlısınız. Bu Sizin hüququnuz olmaqla yanaşı, həm də dövlətimizin inkişafına, onun əhalsinin daha yaxşı yaşamasına olan marağınızdan irəli gəlir.

Bütövlükdə dövlət büdcəsinin gəlir və xərcləri barədə qısa və anlayışlı məlumatın əldə edilməsi məqsədi ilə hazırlanmış “Vətəndaşın büdcə bələdçisi” Sizin ixtiyarınıza verilir. Ümidvarıq ki, hazırlanmış bu məlumat bazası Sizə büdcə sahəsində bələdçilik edəcək, büdcəni daha asan və aydın başa düşməyinizə yardımçı olacaqdır.

# 1. Büdcə özündə nəyi birləşdirir?

Əvvəlcə verilən suala cavab axtaraq.

- Sadə dildə desək, büdcə müxtəlif vergilərin, rüsumların və digər ödənişlərin bir mənbədə toplanması və xərclənməsi barədə sənəddir.

Gəlir vergisi, əlavə dəyər vergisi, aksizlər, mənfəət vergisi və digər vergilər və daxilolmalar üzrə nə qədər məbləğdə vəsait daxil olacaqdır?

Hansı əməliyyatlar maliyyələşdiriləcəkdir? Əhalinin sosial ödənclərinə, pensiya və müavinətlərinə, elmə, təhsilə, müdafiəyə, milli təhlükəsizliyə, mədəniyyətə, ətraf mühitin mühafizəsinə, yolların tikintisinə, ərazilərin abadlaşdırılmasına və digər məsələlərin həllinə nə qədər pul xərclənəcəkdir?

- Dövlətin borclanması barədə məlumatdır.

Gəlirlər xərcdən az olduqda kəsir yaranır. Bu zaman büdcə xərclərinin sabit ödənilməsi üçün borc almaq lazım gəlir.

- İqtisadiyyata təsir alətidir.

İqtisadiyyatın müxtəlif sahələrinə yardım kimi yönəldilən xərclər gələcəkdə yeni məhsulların istehsalına, dəyərlərin yaranmasına, gəlirlərin artımına səbəb olur.

Yolların tikintisi, ərazilərin elektrik təchizatı, qazlaşdırılması, sahibkarlara güzəştli kreditlərin verilməsi kimi işlər ərazilərdə yeni-yeni istehsal müəssisələrinin yaradılmasına, yeni iş yerlərinin açılmasına, məhsul istehsalının artımına şərait yaradır. Bu da iqtisadiyyatın inkişafına təsir edir.

- İqtisadiyyatın təsirinə məruz qalan alətdir.

İqtisadiyyatda artım müşahidə olunanda bu müəssisələrin, əhalinin daha çox gəlir əldə etməsinə səbəb olur. Bunun nəticəsində müəssisələrin, əhalinin büdcəyə ödəyəcəyi vergilərin də həcmi artır.

- Tarixi hesabatdır.

Büdcə keçmişdə dövlətin pulları necə və hara xərcləməsi barədə məlumat verir.

2014-cü il dövlət büdcəsinin gəlirləri 18384,0 milyon manat təşkil edir. Bu vəsaitin 6210,0 milyon manatını bilavasitə əhalinin, qeyri-neft sektorunda fəaliyyət göstərən müəssisə və təşkilatların (hüquqi şəxslər) büdcəyə ödədikləri vergilər və rüsumlar, 12139,0 milyon manatını neftdən əldə edilən gəlirlər, 35,0 milyon manatını isə sair mənbələrdən daxilolmalar təşkil edir.

Konkret olaraq biz əhalinin, qeyri-neft sektorunda fəaliyyət göstərən müəssisə və təşkilatların dövlət büdcəsinə ödədikləri vergi və rüsumları və büdcəyə daxil olan sair gəlirləri cəmləsək bu məbləğ 6245,0 milyon manat təşkil edəcəkdir. Nəzərə alsaq ki, bu vəsait dövlətin funksiya və vəzifələrinin yerinə yetirilməsinə, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasına, bir sözlə dövlətin əhali qarşısında götürdüyü bütün öhdəliklərin maliyyə təminatını ödəmir, onda dövlət neft gəlirlərinin bir hissəsini və müvafiq iqtisadi alətlərin tətbiqi hesabına (büdcə kəsirinin örtülməsi üçün qiymətli kağızların buraxılması, büdcə ilinin sonuna qalan xəzinə qalığı, xaricdən cəlb edilən qrantlar) büdcəyə cəlb etdiyi vəsaitləri dövlət büdcəsinin gəlirlərinə yönəldir.

Yuxarıda qeyd olunan bütün gəlirlər və büdcə kəsirinin maliyyələşdirmə mənbələri hesabına 2014-cü il dövlət büdcəsinin xərcləri 20063,0 milyon manat təşkil edir. Dövlət büdcəsinin xərcləri hesabına dövlət əhaliyə müxtəlif formada ödənişlər və xidmətlər həyata keçirir.

Bu ödəniş və xidmətlər əsasən bir neçə istiqamətdə əhaliyə çatdırılır.

- Birbaşa formada, müxtəlif sosial ödənişlər, yəni pensiyalar, aztəminatlı ailələrə müavinətlər, məcburi köçkünlərə ərzaq təminatı üzrə müavinətlər və bu qəbildən olan ödənişlər formasında;

- Dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərə əmək haqqı və əməyin ödənişi üçün verilən digər ödənişlər formasında;

- İqtisadiyyatın müxtəlif sahələrinə dövlət büdcəsindən subsidiya və subvensiya (sadə dildə desək maliyyə yardımı) şəklində yönəldilən maliyyə vəsaitlərinin müxtəlif xidmətlər formasında əhaliyə çatdırılması;

- Başqa büdcələrə (Naxçıvan Muxtar Respublikasının büdcəsinə və bələdiyyə büdcələrinə əvəzsiz verilən vəsait) verilən dotasiya formasında;

- Digər formada – ehtiyat fondları vasitəsi ilə təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması ilə bağlı vəsaitin ayrılması və digər formalarda



## 2. Büdcəyə pul vəsaiti haradan gəlir – hara gedir?

Təsəvvür edək ki, ata, ana və uşaqlardan ibarət olan Azərbaycan ailəsi masa ətrafında əyləşib öz gəlir və xərclərini, yəni ailə büdcələrini hesablayırlar. Bu zaman onlar il ərzində nə qədər pul qazanacaqlarını və bu pulların haradan əldə edə biləcəklərini müzakirə edirlər. Sonra onlar normal yaşayışlarını təmin etmək üçün lazım olan ərzaq, kommunal xərcləri üzrə ödənişləri, paltar, nəqliyyata ödəyəcəklərini və digər zəruri xərclərini təmin edə biləcək vəsaitlərin həcmini hesablayırlar. Bu xərclərin cəmi ailə büdcəsinin xərcləri deməkdir. Xərclər onların müəyyən etdiyi gəlirlərdən çox olarsa, artıq ailə xərclərin bir hissəsinin, məsələn nəqliyyata, istirahətə, paltara ödəyəcəkləri xərclərin azaldılması haqqında fikirləşir və ya daha çox işləməli, daha çox əmək haqqı verilən iş yerləri tapmaq haqqında düşünürlər. Digər bir yol kimi onlar qarşılarına qoyduqları məqsədlərə çatmaq üçün tələb olunan vəsaitin bir hissəsini dostlarından, qohumlarından borc və ya bankdan kredit götürməkdə görürlər.



Yox, əgər ailənin gəlirləri onların tələblərindən çox olarsa onda ailə öz həyatını daha dəbdəbəli qurmaq, yəni avtomobil, müasir məişət texnikası və digər yeni bahalı avadanlıq və əşyalar almaq, evlərində müasir dəbə uyğun təmir işləri aparmaq haqqında düşünür və bunu həyata keçirirlər.

Ümumilikdə götürsək dövlət də öz büdcəsini ailə büdcəsi kimi müəyyənləşdirir. Büdcə gəlir və xərc hissəsindən ibarətdir. Büdcə gəlirləri xərclərdən artıq olduqda büdcə artıqlığı (profisit), büdcə xərcləri gəlirlərdən artıq olduqda büdcə kəsiri (defisit) yaranır.

İlk növbədə dövlət həyata keçirdiyi funksiyalara, qarşıya qoyulan məqsədlərə çatmaq üçün xərclərini hesablayır. Sonra isə dövlət öz gəlirlərini hesablayır, bunlar müxtəlif vergilərdən, rüsumlardan, ödənişlərdən ibarətdir.

Dövlət öz gəlirlərini və xərclərini tarazlamaq yolu ilə büdcəsini formalaşdırır. Yəni onun nəzərdə tutduğu gəlirlər qarşıya qoyulmuş məsələlərin maliyyə təminatına bəs edərsə, onu təsdiq edir. Yox, əgər xərcləri gəlirlərdən üstündürsə bir sıra xərcləri ixtisar etməyə məcbur olur.

Gəlir və xərclərin hesablanması zamanı bu gəlir və xərclərin müəyyən prinsiplər əsasında təsnifləşdirlir. Bu təsnifləşmə müxtəlif büdcələrin müqayisəsini təmin etməklə onların icmallaşdırılmasına imkan verir. Büdcə gəlir və xərcləri Azərbaycan Respublikasının Vahid Büdcə təsnifatı[1] əsasında tərtib olunur.

---

[1] Azərbaycan Respublikası vahid büdcə təsnifatı – http://e-qanun.az/print.php?internal=view&target=1&docid=5840&doctype=0

## Dövlət büdcəsinin strukturu




Nəticədə dövlət büdcəsinin gəlir və xərcləri üzrə balanslaşdırılmış göstəricilər dövlət büdcəsinin layihəsi formasında əhalinin seçdiyi deputatların təmsil olunduğu Milli Məclisin müzakirəsinə verilir.

Büdcə gəlirləri[2] dedikdə büdcəyə müvafiq qanunvericilik aktları əsasında əvəzsiz və qaytarılmamaq şərtilə köçürülən vəsaitlərdir. Vahid büdcə təsnifatına əsasən büdcə gəlirləri i) vergilərdən daxilolmalar, ii) sosial ayırmalar, iii) qrantlar, iv) digər gəlirlər bölmələrindən ibarətdir.

Ümumiyyətlə götürdükdə isə büdcə gəlirləri vergilərdən, rüsumlardan, digər ödəniş və daxilolmalardan ibarətdir.




[2] büdcə gəlirləri—Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalar

Büdcə xərcləri[3] isə dövlətin və bələdiyyələrin vəzifə və funksiyalarının həyata keçirilməsinə yönəldilən vəsaitlərdir.

Büdcə xərclərinin həyata keçirilən funksiyalara müvafiq olaraq qruplaşdırılmasına xərclərin funksional təsnifatı deyilir.

| **Xərclərin funksional təsnifatı** |
| --- |
| **Ümumi dövlət xidmətləri** |
| **Müdafiə** |
| **Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq** |
| **Təhsil** |
| **Səhiyyə** |
| **Sosial müdafiə və sosial təminat** |
| **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət** |
| **Mənzil və kommunal təsərrüfatı** |
| **Yanacaq və enerji** |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi** |
| **Sənaye, tikinti və faydalı qazıntılar** |
| **Nəqliyyat və rabitə** |
| **İqtisadi fəaliyyət** |
| **Əsas bölmələrə aid edilməyən xidmətlər** |

Ümumi dövlət xidmətləri xərclərinə i) qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, ii) beynəlxalq fəaliyyət və beynəlxalq təşkilatlara üzvlük haqqı, iii) elm, iv) başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidmətləri, v) dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi, vi) büdcələr arasında transfertlər ilə bağlı xərclər daxildir.

Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanılması xərclərinə müdafiə, hüquq-mühafizə, təhlükəsizlik sahələrinə aid edilən orqanlar istisna olmaqla, digər dövlət orqanlarının və onların strukturuna daxil olan bölmələrin saxlanılması və həmin orqanlar tərəfindən göstərilən xidmətlər üzrə xərclər daxildir. Həmçinin, bu orqanlar tərəfindən öz sahələrindəki vəziyyət haqqında məlumatların yığılması, onların yoxlanılması, idarə edilməsi və ya onlara yardım edilməsi ilə bağlı xərclər daxildir.

Beynəlxalq fəaliyyət və beynəlxalq təşkilatlara üzvlük haqqı xərcləri özündə Azərbaycan Respublikasının xaricdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin və konsulluqlarının saxlanılması, Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq maliyyə-kredit təşkilatlarının səhm

[3] büdcə xərcləri—büdcə təsnifatına uyğun olaraq dövlət və icmal büdcələrdən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və yerli büdcələrdən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsait

kapitalında iştirakı ilə bağlı xərcləri, beynəlxalq ictimai-siyasi təşkilatlara üzvlük haqqı, ianə və digər ödənişləri birləşdirir.

Elm xərclərinə elmi tədqiqat təşkilatlarına rəhbərlik və onların idarə edilməsi, qeyri-dövlət elmi tədqiqat təşkilatları tərəfindən həyata keçirilən fundamental tədqiqatlara yardım üzrə xərclər daxildir. Həmçinin konkret praktiki məqsədlərə nail olmaq üçün yeni biliklərin əldə edilməsi ilə bağlı xərclər, elmi tədqiqatlar və praktiki təcrübə nəticəsində əldə olunmuş biliklərin istifadəsi ilə bağlı yeni materialların alınması, qurğuların yaradılması, yeni proseslərin, sistemlərin və xidmətlərin tətbiqi və təkmilləşdirilməsi ilə bağlı xərclər, qeyri-dövlət elmi tədqiqat təşkilatları tərəfindən həyata keçirilən ümumi təyinatlı dövlət xidmətləri ilə əlaqədar tətbiqi və təcrübi tədqiqatlara yardımların verilməsi xərcləri daxildir.

Başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidmətləri xərclərinə isə ölkədə seçicilərin qeydiyyatı, seçkilərin, referendumların və digər seçkilərin keçirilməsi, respublika miqyaslı siyahıyaalınma və statistika sistemində islahatların aparılması xərcləri daxildir.

Büdcələr arasında transfertlər isə bir büdcədən digər büdcəyə verilən ümumi təyinatlı xərcləri özündə əks etdirir.

Vahid büdcə təsnifatına əsasən “Müdafiə” bölməsi “Müdafiə qüvvələri”, “Milli təhlükəsizlik”, “Müdafiə və təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar” və “Digər kateqoriyalara aid edilməyənlər” köməkçi bölmələrindən ibarətdir.

“Müdafiə qüvvələri” köməkçi bölməsinə silahlı qüvvələr, müdafiə sahəsində məsələlərə və xidmətlərə rəhbərlik, quru, dəniz, hava hücumlarından müdafiə qüvvələrinin idarə edilməsi, mühəndis və nəqliyyat qoşunlarının, rabitə qoşunlarının, hərbi kadr xidmətinin və digər qeyri-nizami xidmətlərin, ehtiyatda olanların və müdafiə məqsədli köməkçi qüvvələrin idarə edilməsi və ya onlara kömək göstərilməsi, həmçinin xaricdə olan hərbi attaşelərin aparatlarının və səhra hospitallarının saxlanılması ilə bağlı xərclər, mülki müdafiə məsələləri ilə bağlı xidmətlər daxildir.

“Milli təhlükəsizlik” köməkçi bölməsinə milli təhlükəsizlik qüvvələrinə rəhbərlik və onun idarə olunması, kadr siyasəti və saxlanılması ilə bağlı xərclər daxildir.

“Müdafiə və təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar” köməkçi bölməsinə müdafiə və milli təhlükəsizliklə əlaqədar tətbiqi tədqiqatları və təcrübi işləri həyata keçirən təşkilatlara rəhbərlik və onların idarə edilməsi, elmi tədqiqat institutları tərəfindən həyata keçirilən müdafiə və milli təhlükəsizliklə əlaqədar tətbiqi tədqiqatların və təcrübi işlərin həyata keçirilməsi ilə bağlı xərclər daxildir.

“Digər kateqoriyalara aid edilməyənlər” köməkçi bölməsinə “Müdafiə” bölməsinə daxil edilmiş digər xərclərdə öz əksini tapmayan digər xidmətlərlə bağlı xərclər daxildir.

Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq xərcləri Vahid Büdcə təsnifatının xərclərin funksional hissəsinə uyğun olaraq i) məhkəmə hakimiyyəti, ii) hüquq-mühafizə, iii) prokurorluq, iv) digər kateqoriyalara aid edilməyən köməkçi bölmələrin xərclərindən ibarətdir.

“Məhkəmə hakimiyyəti” köməkçi bölməsinə məhkəmə orqanlarının saxlanılması, məhkəmələrin qərarı ilə cərimələrin alınması və məhkəmə qərarlarının yerinə yetirilməsi, ona kömək göstərilməsi, vaxtından əvvəl şərti olaraq azadlığa buraxılma və şərti mühakimə sistemlərinin idarə edilməsi, mülki və cinayət məhkəmələrinə və məhkəmə sisteminə rəhbərlik və onun idarə edilməsi və məhkəmə hakimiyyəti orqanlarında sair tədbirlər, həmçinin hökumət tərəfindən maliyyələşdirilən və təchiz olunan, eyni zamanda hökumətin və ya başqa orqanların adından hüquqi yardım və məsləhətlə bağlı göstərilən xidmətlər üzrə xərclər daxildir.

“Hüquq mühafizə” köməkçi bölməsinə polisin fəaliyyətinin təşkili, yol hərəkətinin təşkili, idarə edilməsi, nizami və köməkçi polis qüvvələrinin, liman, sərhəd və sahil mühafizəsinin və digər xüsusi polis qüvvələrinin idarə edilməsi, kriminalistika laboratoriyalarının, polis üçün kadr hazırlığı proqramlarının idarə edilməsi və onlara yardımların göstərilməsi, fövqəladə hallarla mübarizə və onun qarşısının alınması üzrə fəaliyyət və bu xidmətə rəhbərlik, nizami və köməkçi yanğınsöndürmə dəstələrinin, yanğınla mübarizə və yanğının qarşısının alınması üzrə digər xidmətlərin idarə edilməsi, yanğınla mübarizə və onun qarşısının alınması üzrə kadr hazırlığı proqramlarının idarə edilməsi və onlara yardımın göstərilməsi, yol hərəkətinin nizamlanması və ona nəzarət, polis qüvvələri tərəfindən qaçaqmalçılıq fəaliyyətinin qarşısının alınması, dənizdə və çaylarda balıq ovuna nəzarət də daxil edilməklə, dağlarda xilasetmə xidməti, çimərliklərə nəzarət xidməti, xarici vətəndaşların qeydiyyatı, mühacirlərə işçi və yol sənədlərinin verilməsi, məhbuslarla əlaqədar sənədləşdirmə və statistik məlumatların aparılması və yığılması, su basmış ərazilərdən əhalinin köçürülməsi və sair bu kimi mülki əhalinin qorunması xidmətləri ilə bağlı xərclər daxildir.

“Prokurorluq” köməkçi bölməsinə prokurorluq sisteminin işinin təşkili, idarə edilməsi, saxlanılması və sair tədbirlərin xərcləri daxildir.

“Digər kateqoriyalara aid edilməyən xidmətlər” köməkçi bölməsinə “məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları” bölməsinə daxil edilmiş köməkçi bölmələrdə öz əksini tapmayan digər xidmətlər (işçi qrupların saxlanılması, bölmə üzrə əmək haqqı və pensiya təminatı sistemlərinin təkmilləşdirilməsi və digər sosial tədbirlərin maliyyələşməsi, bu orqanların obyektlərində yenidən qurma və əsaslı təmir, maddi texniki təminatın möhkəmləndirilməsi ilə bağlı xərclər) üzrə xərclər daxildir.

“Təhsil” bölməsi Vahid büdcə təsnifatına əsasən dövlət tərəfindən təhsilə, fərdi və kollektiv əsaslarla şagird və tələbələrə göstərilən xidmətlərə çəkilən xərcləri özündə birləşdirir. Təhsil sahəsində kollektiv xidmətlər, dövlət siyasətinin müəyyənləşdirilməsi və müvafiq proqramların işlənib hazırlanması, təhsil müəssisələrinin fəaliyyətlərinin tənzimlənməsi, təhsil sahəsində fəaliyyətlə və göstərilən xidmətlərlə əlaqədar təcrübə və əsaslı tədqiqatlarla bağlı görülən işlər bu bölmənin xərclərinə daxildir. Bu bölməyə əhalinin təhsil aldığı uşaq bağçalarının, orta məktəblərin, liseylərin, institutların, universitetlərin, texniki peşə məktəblərinin və digər təhsil müəssisələrinin saxlanılması, şagird və tələbələrin təhsil alması üçün müvafiq şəraitin yaradılması ilə bağlı xərclər daxildir.

“Səhiyyə" bölməsi Vahid Büdcə Təsnifatına əsasən xəstəxanaların, klinikaların, tibb məntəqələrinin və sair tibbi personal üçün standartların işlənib hazırlanması və onlara əməl olunmasının təminatı, səhiyyə sahəsində xidmət göstərənlərin fəaliyyətlərinin tənzimlənməsi və lisenziyalaşdırılması, həmçinin tibbi sağlamlığın qorunması sahəsində təcrübə və tətbiqi tədqiqatlarla bağlı fəaliyyətləri əhatə edir.

“Sosial müdafiə və sosial təminat” bölməsindən əmək münasibətləri, əməyin mühafizəsi, əmək ehtiyatlarından istifadə, əhalinin sosial müdafiəsi, əhalinin məşğulluğu, tibbi-sosial ekspertiza, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası sahəsində, əmək pensiyalarının, sosial müavinətlərin, ünvanlı dövlət sosial yardımının ödənişi, qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi, əlillərin sanatoriya-kurort müalicəsinin təşkili, əlillərə eşitmə aparatlarının, protezləşdirmə məmulatlarının, əlil arabalarının və nəqliyyat vasitələrinin alınması xərcləri maliyyələşdirilir.

Büdcə xərcləri iqtisadi mahiyyətinə görə müxtəlif xərclərə bölünür, yəni təsnifləşir. İqtisadi təsnifata uyğun olaraq xərclər aşağıdakılardır: i) əməyin ödənişi (əmək haqqı, əmək haqqına üstəlik), ii) malların (işlərin və xidmətlərin) satın alınması (dəftərxana, təsərrüfat, mətbəə, mühafizə, ezamiyyə xərcləri, nəqliyyat, kommunal, kommunikasiya, abadlaşdırma xidmətləri haqqının ödənilməsi, dərman, ərzaq, avadanlıq alınması), iii) fazilər üzrə ödənişlər, iv) subsidiyalar və cari transfertlər, v) qrantlar və digər ödənişlər, vi) təqaüdlər və sosial müavinətlər, vii) digər xərclər (icarə və muzdlu xidmətlər, əsaslı təmir, bank xərcləri, sair xərclər), viii) qeyri-maliyyə aktivlərinin alınması (bina və tikililərin alınması və tikintisi, torpağın, nəqliyyat vasitələrinin alınması və s), ix) maliyyə aktivləri üzrə əməliyyatlar, x) öhdəliklər üzrə maliyyə əməliyyatları

Eyni zamanda iqtisadi mahiyyətinə görə xərcləri üç qrupa bölmək olar. Bunlar cari xərclər, əsaslı xərclər və dövlət borcuna xidmətlə bağlı xərclərdir. Cari xərclərə istifadə müddəti büdcə ilində başa çatan xərclər, əsasən əmək haqqı, pensiyalar, dəftərxana ləvazimatlarının alınması, elektrik enerjisinin, suyun, qazın, kanalizaisya xidmətlərinin, telefon danışıq haqlarının ödənilməsi, dərman və sarğı ləvazimatlarının, yanacaq və sürtgü materiallarının, ərzaq məhsullarının alınması və s. bu kimi xərclər daxil edilir.

Əsaslı xərclərə istifadə müddəti büdcə ilindən daha çox müddətə hesablanan və əsas vəsaitlər sırasına daxil olan xərclər, yəni bina və tikililərin, müxtəlif maşın, avadanlıq və qurğuların alınması, binaların, yolların, körpülərin əsaslı təmiri, bərpası və tikintisi və bu qəbildən olan digər xərclər daxildir.

Dövlət borcuna xidmətlə bağlı xərclərə ölkənin sosial-iqtisadi inkişafına yönəldilmiş proqramların həyata keçirilməsini təmin etmək, dövlət büdcəsinin kəsirini örtmək, bir sıra dövlət əhəmiyyətli tikintilərin, alışların həyata keçirilməsi, və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilən digər məsələlərin həlli məqsədi ilə dövlətin götürdüyü borclar üzrə müxtəlif öhdəliklərlə bağlı xərclər daxildir. Dövlət borcu xarici və daxili dövlət borclarından ibarətdir.

# 3. Dövlət büdcəsi layihəsi necə tərtib olunur və özündə hansı mərhələləri birləşdirir

Azərbaycan Respublikasının büdcə sisteminə daxil olan büdcələrin layihələrinin hazırlanması ilə bağlı məsələlər Azərbaycan Respublikasının Konstitusiyası, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu[4], Vergi Məcəlləsi və digər normativ-hüquqi aktlarla tənzimlənir.

## Büdcə prosesini tənzimləyən əsas normativ-hüquqi sənədlər

- Azərbaycan Respublikasının Konstitusiyası
- "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu
- Vergi Məcəlləsi
- "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları (Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı)
- müvafiq il üçün dövlət büdcəsi, Dövlət Sosial Müdafiə Fondu haqqında qanunlar
- müvafiq il üçün Dövlət Neft Fondunun büdcəsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Bu normativ aktlar toplusu büdcə prosesinin əsas prinsiplərini, dövlət və icmal büdcələrin tərtibi və icrası prosesində müvafiq icra hakimiyyəti orqanları, büdcənin tərtibi prosesində iştirak edən orqanları[5], büdcədənkənar dövlət fondları, digər təşkilatlar arasında qarşılıqlı münasibətlərin əsas istiqamətlərini özündə birləşdirir.

Ümumiyyətlə götürdükdə, büdcə prosesi özündə dörd mərhələni: büdcə layihəsinin tərtibi; büdcə layihəsinin təsdiqi; büdcənin icrası; büdcənin icrasına nəzarəti birləşdirir.

---

[4] "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu – http://e-qanun.az/print.php?internal=view&target=1&docid=1126&doctype=0

[5] büdcənin tərtibi prosesində iştirak edən təşkilatlar—mərkəzi və yerli icra hakimiyyəti orqanları və onların struktur bölmələri, büdcə gəlirlərinin icrasını təmin edən orqanlar, dövlət büdcəsindən maliyyələşən və (və ya) maliyyə yardımı alan təşkilatlar, büdcədənkənar dövlət fondları və vergi ödəyiciləri, zərurət yarandıqda, bələdiyyələr

# Büdcə prosesinin mərhələləri




Azərbaycan Respublikasının Konstitusiyasına və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ölkəmizdə müxtəlif büdcələrin təsnifləşməsi təmin edilmişdir ki, bu da büdcə sistemini təşkil edir. Azərbaycan Respublikası Konstitusiyasına əsasən Azərbaycan Respublikasının büdcə sisteminə Azərbaycan Respublikasının dövlət büdcəsi (büdcədənkənar əməliyyatlar da daxil olmaqla), Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələr, yəni bələdiyyə büdcələri daxildir. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin (büdcədənkənar əməliyyatlar da daxil olmaqla) və büdcədənkənar dövlət fondlarının gəlir və xərclərinin funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində əks etdirən maliyyə sənədinə icmal büdcə deyilir. Başqa sözlə Azərbaycan Respublikasının büdcə sisteminə daxil olan büdcələr və büdcədənkənar dövlət fondlarının büdcələrinin gəlir və xərclərini özündə əks etdirən məcmuya isə icmal büdcə deyilir.

# 2014-cü il üzrə icmal büdcənin strukturu



**İcmal büdcənin gəlirləri**

- Dövlət büdcəsinin gəlirləri
- Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri
- Dövlət Neft Fondunun büdcəsinin gəlirləri
- Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirəri



**İcmal büdcənin xərcləri**

- Dövlət büdcəsinin xərcləri
- Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin xərcləri
- Dövlət Neft Fondunun büdcəsinin xərcləri
- Naxçıvan Muxtar Respublikasının büdcəsinin xərcləri
- Xarici kreditlər hesabına maliyyələşən layihələr üzrə xərclər



**İcmal büdcənin kəsiri**

Büdcə layihələrinin hazırlanması zamanı əsas məsələlərdən biri də gəlir və xərclərin qruplaşdırılması, onların müqayisəsinin təmin edilməsidir. Bu məqsədlə Azərbaycan Respublikasının büdcə sisteminə daxil olan büdcələr, habelə büdcədənkənar dövlət fondları üzrə maliyyə əməliyyatlarının daha şəffaf müqayisəsini təmin edən, büdcə xərclərinin istiqamətlərini özündə əks etdirən, “Vahid büdcə təsnifatı” hazırlanaraq təsdiq edilmişdir.

Dövlət büdcəsinin layihəsinin tərtibi prosesi “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununun 11-ci maddəsinə uyğun olaraq həyata keçirilir.

Hər ilin yanvar ayının sonunadək Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı və ya sərəncamı ilə növbəti il və sonrakı üç il üçün dövlət büdcəsinin layihəsinin tərtibi prosesinə başlanılır. Bu sənəddə dövlət büdcəsinin layihəsinin tərtibi prosesində iştirak edən aidiyyəti orqanlara: Maliyyə, İqtisadi İnkişaf, Vergilər nazirliklərinə, Dövlət Gömrük və Statistika komitələrinə, rayon (şəhər) icra hakimiyyəti orqanlarına və digər dövlət təşkilatlarına müvafiq tapşırıqlar verilir.

Bundan sonra Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqnozlarını dəqiqləşdirir. Bu proqnozların

əsasında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi növbəti il və sonrakı üç il üçün dövlət və icmal büdcələrin ilkin ortamüddətli proqnozunu tərtib edir.

Hazırlanmış sənədlər öz səlahiyyətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən növbəti il üzrə dövlət büdcəsinin layihəsi və sonrakı üç il üçün icmal büdcə göstəricilərinin tərtibinə dair təlimat məktubu hazırlanır və büdcənin tərtibində prosesində iştirak edən təşkilatlara göndərilir. Bu təlimatda aidiyyəti məlumatlarla yanaşı təşkilatlar və hər bölmə üzrə xərclərin yuxarı həddinə, cari xərclərə dair təsdiq olunmuş normalara, formalara, ətraflı büdcə təklifinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilməsi üçün yardımçı sənədlər daxil olmaqla gəlirlərin və xırclərin təhlilinə (qiymətləndirilməsinə) dair məlumatlar verilir.

Büdcə təşkilatlarının xərcləri müəyyən edilərkən onların büdcədənkənar əməliyyatları[6] üzrə xərcləri də nəzərə alınır.

Dövlət büdcəsinin gəlirlərinin icrasını təmin edən orqanlar və Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən təşkilatlar təlimata uyğun olaraq hazırlanmış büdcə layihəsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edirlər.

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi tərəfindən cari ilin altı ayının faktiki nəticələri nəzərə alınmaqla növbəti il üzrə və ortamüddətli makroiqtisadi göstəricilər, habelə sosial, iqtisadi və investisiya proqramları dəqiqləşdirilir. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi makroiqtisadi göstəricilərin dəqiqləşdirilmiş proqnozuna və hazırlanmış proqramlara əsasən dövlət büdcəsinin layihəsində gəlirləri və xərcləri yenidən hesablayır. Dəqiqləşdirilmiş göstəricilər dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlarla razılaşdırılır və müvafiq qaydada rəsmləşdirilir.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcənin layihəsi və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti öz növbəsində növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcənin layihəsi sonrakı üç il üçün icmal büdcənin göstəriciləri və "Büdcə sistemi haqqında" Qanunla müəyyən edilən digər sənədləri Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

Növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi əlavə edilmiş digər sənədlərlə birlikdə (büdcə zərfi) cari ilin oktyabr ayının 15-dən gec olmayaraq Azərbaycan Respublikası Prezidenti tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinin müzakirəsinə təqdim edilir.

Müvafiq büdcə zərfi Azərbaycan Respublikasının Milli Məclisə daxil olduqduğu tarixdən 10 gün ərzində mətbuatda dərc olunur.

---

[6] Büdcədənkənar əməliyyatlar – müvafiq icra hakimiyyəti orqanlarının və büdcə təşkilatlarının qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət büdcəsindən və Naxçıvan Muxtar Respublikasının büdcəsindən kənarda əldə etdikləri gəlirləri və həyata keçirdikləri xərcləri üzrə maliyyə əməliyyatları

Növbəti büdcə ili üzrə dövlət büdcəsi Azərbaycan Respublikasının Milli Məclisdə cari ilin dekabr ayının 20-dən gec olmayaraq qanunla təsdiq olunur.

Təsdiq olunmuş dövlət büdcəsinin göstəriciləri, gəlir və xərclərin bölgüsü Azərbaycan Respublikasının Maliyyə Nazirliyiy tərəfindən bir ay müddətinə büdcə təşkilatlarına çatdırılır.

## Dövlət büdcəsinin layihəsinin tərtibi və təsdiqi qrafiki (təqvimi)

| Tədbirin adı | İcraçı | İcra müddəti |
|---|---|---|
| Dövlət büdcəsi layihəsinin tərtibinə başlanılması barədə qərarın qəbulu | Nazirlər Kabineti | Yanvar ayının 3-cü on günlüyü |
| Ortamüddətli iqtisadi və sosial inkişaf proqnozlarının dəqiqləşdirilməsi | İqtisadi İnkişaf Nazirliyi | Fevral ayı |
| Ortamüddətli dövlət və icmal büdcələrin ilkin proqnozunun tərtibi | Maliyyə Nazirliyi | Mart ayı |
| Dövlət investisiya proqramının ilkin layihəsinin tərtibi | İqtisadi İnkişaf Nazirliyi | |
| Dövlət büdcəsinin ilkin layihəsinin (büdcə-vergi siyasətinin əsas istiqamətləri, büdcə təsnifatının bölmələri səviyyəsində gəlir və xərclərin yuxarı həddi, dövlət borcları, prioritet xərclər, növbəti il və sonrakı üç il üçün icmal büdcə proqnozu ilə birlikdə) Nazirlər Kabinetinə təqdimi | Maliyyə Nazirliyi | Aprel ayının 15-dək |
| Dövlət investisiya proqramının ilkin layihəsinin Nazirlər Kabinetinə təqdimi | İqtisadi İnkişaf Nazirliyi | Aprel ayının 15-dək |
| Büdcə layihəsinin tərtibi ilə bağlı təlimat məktubunun təşkilatlara göndərilməsi | Maliyyə Nazirliyi | May ayının 1-dək |
| Büdcə layihələrinin Maliyyə Nazirliyinə təqdim olunması | Büdcə prosesində iştirak edən təşkilatlar | İyul ayının 1-dək |
| Büdcə layihələri üzrə Maliyyə Nazirliyində müzakirələr | | İyul-avqust ayları |
| Dövlət büdcəsi layihəsinin Nazirlər Kabinetinə təqdim olunması | Maliyyə Nazirliyi | Sentyabr ayının 15-dək |
| Dövlət büdcəsi layihəsinin Azərbaycan Respublikası Prezidentinə təqdim olunması | Nazirlər Kabineti | Sentyabr ayının 25-dək |
| Dövlət büdcəsi layihəsinin Milli Məclisə təqdim olunması | Azərbaycan Respublikasının Prezidenti | Oktyabr ayının 15-dən gec olmayaraq |
| Dövlət büdcəsi haqqında Qanunun təsdiqi | Milli Məclis | Dekabr ayının 20-dən gec olmayaraq |

# 4. 2014-cü il dövlət büdcəsi

2014-cü il büdcə zərfi, Azərbaycan Respublikası Prezidenti tərəfindən Azərbaycan Respublikası Milli Məclisinə təqdim olunan 2014-cü büdcə ili[7] üçün sənədlər toplusudur. Burada Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyənləşdirilən prioritet xərclər və ölkənin inkişaf istiqamətləri öz əksini tapmışdır.



**"Büdcə əlbəttə ki, həm investisiya, həm sosial yönümlü olmalıdır. Büdcədə müdafiə xərcləri önəmli yer tutmalıdır, eyni zamanda, bütün infrastruktur layihələri, sosial layihələr, sosial ödəmələr nəzərə alınacaqdır."**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
18 iyul 2013-cü il

[7] Büdcə ili – yanvar ayının 1-dən dekabr ayının 31-dək olan bir illik dövr

## 4.1. 2014-cü il üzrə makroiqtisadi proqnozlar

Makroiqtisadi sabitlik, birrəqəmli inflyasiya, əlverişli vergi və borclanma siyasəti, sosial məsələlərin həlli, əhalinin yaşayış səviyyəsinin, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi ortamüddətli dövr üçün dövlətin daim diqqətdə saxladığı əsas vəzifələri sırasındadır.

Ortamüddətli perspektivdə ölkənin makroiqtisadi göstəricilərinin sabit artımına, qeyri-neft sektorunun dayanıqlı inkişafına, maliyyə intizamının gücləndirilməsinə və şəffaflığının daha da artırılmasına, iqtisadiyyatın tənzimlənməsində dövlət büdcəsinin rolunu artırmaqla, onu əsas iqtisadi alətlərdən birinə çevirmək büdcə-vergi siyasətinin əsas məqsədlərindəndir.

2014-cü ildə ölkə üzrə 5,2 faiz iqtisadi artım təmin olunmaqla 58,6 milyard manat həcmində ümumi daxili məhsulun [8] (ÜDM) istehsal olunması proqnozlaşdırılır. Qeyri-neft sektorunda 36,0 milyard manat əlavə dəyərin yaradılması proqnozlaşdırılır ki, bu da 2013-cü ilə nisbətən 10,0 faiz real artım deməkdir.




2014-cü ildə ölkə iqtisadiyyatına 18,4 milyard manat və ya 2013-cü ilə nisbətən 2,9 faiz çox investisiyanın yönəldiləcəyi proqnozlaşdırılmışdır. Daxili investisiyaların ümumi investisiyalardakı xüsusi çəkisi 70,4 faiz, xarici investisiyaların payı isə 29,6 faiz həddində gözlənilir.

Cəlb edilən investisiyaların 68,5 faizinin qeyri-neft sektoruna yönəldilməsi proqnozlaşdırılır ki, bu da qeyri-neft sektorunun inkişafına xidmət edəcəkdir.

2014-cü ildə dövlət investisiyaları 9,7 milyard manat olmaqla ümumi investisiyalarda üstünlük təşkil edəcəkdir.

---

[8] Ümumi daxili məhsul — bir il ərzində iqtisadiyyatda (ölkə daxilində) istehsal olunan bütün mal və xidmətlərin məcmu bazar qiymətidir

2014-cü ildə əhalinin gəlirlərinin 6,4 faiz artaraq 42,3 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır.

2014-cü ilin neft gəlirləri 1 barel üçün 100,0 ABŞ dolları ilə hesablanmışdır.

2014-cü ildə inflyasiyanın 3,5 faiz həcmində olacağı proqnozlaşdırılır.

## 4.2. 2014-cü il üzrə büdcə-vergi siyasətinin əsas istiqamətləri

2014-cü il üçün büdcə-vergi siyasəti "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11.5-ci maddəsi əsasında Azərbaycan Respublikasının iqtisadi kursuna, ortamüddətli maliyyə siyasətinə, ölkənin iqtisadi və sosial-inkişaf proqnozlarına, Azərbaycan Respublikasının Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasından irəli qələn vəzifələrə və müvafiq dövlət proqramlarına uyğun olaraq hazırlanmışdır.

Dövlət büdcəsinin gəlirlərinin yığım əmsalının artırılması, mülkiyyət və yol vergilərinin dərəcələrinin optimallaşdırılması, əməkhaqqından gəlir vergisinin vergi tutulmayan məbləğinin yaşayış minimumuna yaxınlaşdırılması, müxtəlif vergi növləri üzrə vergi bazasının genişləndirilməsi və vergidən yayınmaların qarşısının alınması istiqamətində işlər növbəti illərdə də davam etdiriləcəkdir.

Milli iqtisadi inkişaf strategiyasına uyğun olaraq son illər vergi sisteminin təkmilləşdirilməsi, vergi xidmətinin müasir Avropa standartlarına uyğunlaşdırılması sahəsində əhəmiyyətli işlər görülmüş, vergi qanunvericiliyi və vergi inzibatçılığının müasir tələblər baxımından qurulmasında çox mühüm nailiyyətlər əldə edilmişdir. Bu nailiyyətlərin konseptual əsasları vergi ödəyicilərinin hüquqlarının genişləndirilimәsi, vergi güzəştlərinin minimuma endirilmısi, vergidən yayınma hallarına qarşı səmərəli mübarizənin təşkili və əlverişli investisiya mühitinin yaradılmasından ibarət olmuşdur.

Eyni zamanda, bütün vergi ödəyiciləri üçün bərabər iqtisadi şəraitin yaradılması, ölkədə sahibkarlığın inkişafı və azad rəqabətin formalaşması vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsinin əsas prinsiplərindəndir.

Vergitutma sahəsində strateji məqsəd və hədəflərə nail olmaq üçün son dövrlərdə səmərəli vergi siyasəti həyata keçirilmişdir. Vergi siyasəti əsasən dövlət vergilərinin və digər büdcə daxilolmalarının düzgün hesablanmasına, onların vaxtında və tam məbləğdə dövlət büdcəsinə köçürülməsinə, vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsinə, vergi nəzarətinin gücləndirilməsinə, vergi ödəyicilərinə xidmətin keyfiyyətinin yüksəldilməsinə və vergi sistemində insan resurslarından istifadənin səmərəliyinin artırılmasına yönəldilmişdir.

Növbəti illərdə də vergi siyasətinin əsas istiqamətləri sahibkarlığın müasir sahələrinin, o cümlədən innovativ sahibkarlığın inkişaf etdirilməsinə, investisiya qoyuluşlarının genişləndirilməsinə, aktiv vergi siyasətinin həyata keçirilməsi, vergi inzibatçılığının müasir informasiya-kommunikasiya texnologiyaları sferasında daha da təkmilləşdirilməsinə, vergi dərəcələrinin optimallaşdırılmasına, beynəlxalq vergi qanunvericiliyinə inteqrasiyanın daha da sürətləndirilməsinə yönəldiləcəkdir.

Qeyri-neft sektorunda yeni istehsal və xidmət müəssisələrinin yaradılması, sənayeləşmənin sürətləndirilməsi və sənayə istehsalının artırılması üçün maliyyə təminatını yaratmaq hökumətin qarşısında qoyulmuş prioritet vəzifələrdəndir.

Müvafiq dövlət proqram və tədbirlərinin ortamüddətli büdcə xərcləri ilə əlaqələndirilməsinin daha da təkmilləşdirilməsi, dövlət əsaslı vəsait qoyuluşu xərcləri hesabına tikintisi başa çatdırılan obyektlərin fəaliyyətə başlamaları ilə bağlı tələb olunan xərclərin ortamüddətli büdcə xərclərində nəzərə alınması təmin ediləcəkdir.

İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi və elektron hökumətin genişləndirilməsi, ölkə ərazisində keçirilməsi nəzərdə tutulan beynəlxalq əhəmiyyətli tədbirlərin, dövlətin borc və öhdəliklərinin maliyyə təminatı 2014-cü ildə də dövlət büdcəsinin prioritet xərcləri sırasındadır.

Regionların sosial-iqtisadi inkişafının sürətləndirilmək və balanslaşdırılmış inkişafa nail olunmaq, rayon və şəhərlərin yerli gəlirlərini və xərclərini artırılmaq diqqətdə olacaqdır.

Ortamüddətli dövrdə ölkənin daxili resurslarının payına üstünlük verilməklə iqtisadiyyata daha çox sərmayə qoyulması, mərhələlərlə potensial xərclərin orta və uzunmüddətli dövrləri əhatə edən proqramlar əsasında proqnozlaşdırılmasının daha da genişləndirilməsi, dövlət zəmanəti ilə iqtisadiyyata cəlb olunan və dövlət büdcəsində dövlət investisiya xərcləri üçün nəzərdə tutulmuş vəsaitin prioritetlər, istiqamətlər (sahələr) üzrə bölgüsü və həmin vəsaitlərə ictimai və dövlət nəzarətinin daha da artırılması qarşıda duran mühüm vəzifələrdəndir.

Ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqnozuna uyğun olaraq 2014-cü ildə dövlət büdcəsi üzrə aşağıdakı tədbirlərin reallaşdırılması nəzərdə tutulur.

*Gəlirlər üzrə:*

- qeyri-neft gəlirlərinin qeyri-neft Ümumi daxili məhsulda və büdcə gəlirlərində xüsusi çəkisini artırmaq;
- fiziki şəxslərdən tutulan gəlir vergisi və məcburi dövlət sığorta haqları üzrə tutulma bazalarını uyğunlaşdırmaq;
- vergi daxilolmalarının yığım əmsalını artırmaq;
- vergidən yayınmaların qarşısının alınması və vergi ödənişləri üzrə yaranmış borcların həcminin əhəmiyyətli dərəcədə azaldılması istiqamətində tədbirləri gücləndirmək;
- respublikanın şəhər və rayonları üzrə yerli gəlir və xərclərin tarazlaşdırılması istiqamətində işləri davam etdirmək;
- dövlət torpaqlarının icarəyə verilməsindən əldə olunan gəlirlərin büdcəyə daxilolma əmsalını artırmaq.

*Xərclər üzrə:*

- sosial siyasətin davam etdirilməsi, əhalinin rifahının və yaşayış səviyyəsinin, qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görmək;
- əmək haqları, pensiyalar və digər sosial ödənişlər üzrə islahatların davam etdirilməsi üçün maliyyə təminatı yaratmaq;
- ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün ordu quruculuğunun beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə stabil maliyyə təminatına nail olmaq;
- ərzaq təhlükəsizliyinin təmin edilməsi, əhalinin əsas ərzaq məhsulları ilə özünütəminin həlli üçün aqrar sektora dövlət qayğısının artırılması, dövlət tərəfindən fermerlərin dəstəklənməsi, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi və bu sahələrə birbaşa subsidiyaların verilməsini davam etdirmək;
- sahibkarlığın və lizinqin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunda yeni istehsal və xidmət müəssisələrinin yaradılması, sənayeləşmənin sürətləndirilməsi və sənayə istehsalının artırılması üçün maliyyə təminatı yaratmaq;
- ölkənin enerji potensialının gücləndirilməsi və bərpa olunan enerji növlərinin yaradılması üçün dövlətin maliyyə dəstəyini təmin etmək;
- informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, elektron hökumətin genişləndirilməsi məqsədilə maliyyə təminatı yaratmaq;
- ölkə ərazisində keçirilməsi nəzərdə tutulan beynəlxalq əhəmiyyətli tədbirlərin, dövlətin borc və öhdəliklərinin maliyyə təminatı üçün tələb olunan məbləğdə vəsait ayırmaq;
- dövlət borclarının idarə olunmasında səmərəliliyi daha da artırmaq, dövlət zəmanəti ilə kredit alan təşkilatların maliyyə fəaliyyətinə nəzarəti gücləndirmək, kreditlərə xidmət xərclərinin həmin təşkilatların vəsaitləri hesabına həyata keçirilməsi işini davam etdirmək;
- dövlət proqram və tədbirlərinin ortamüddətli büdcə xərcləri ilə uzlaşdırılmasını, dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş yeni dövlət proqramlarının və tədbirlərin maliyyələşdirilməsini təmin etmək;
- təhsil, səhiyyə, sosial sığorta və sosial yardım sistemi, idman və mədəniyyət sahələrində islahatları davam etdirmək, onların prioritet inkişaf istiqamətlərini stimullaşdırmaq;
- dövlət əsaslı vəsait qoyuluşu xərclərinin strukturunu daha da təkmilləşdirməklə sosial və istehsal infrastrukturlarının tikintisinə və bərpasına üstünlük vermək, vəsaitdən istifadənin effektivliyini daha da artırmaq;
- dövlət büdcəsi xərclərinin strukturunun təkmilləşdirilməsi və şəffaflığın artırılmasını təmin edən qanunvericilik bazasının gücləndirilməsi istiqamətində işləri davam etdirmək.

## 4.3. 2014-cü il üzrə dövlət büdcəsinin göstəriciləri

Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsinin gəlirləri 18384,0 milyon manat, xərcləri 20063,0 milyon manat nəzərdə tutulmuşdur. 2014-cü ildə dövlət büdcəsində 1679,0 milyon manat məbləğində kəsirin yaranması gözlənilir.




## 4.4. 2014-cü il üzrə dövlət büdcəsinin gəlirləri

2014-cü ildə dövlət büdcəsi gəlirləri ümumi daxili məhsulun 31,4 faizini təşkil etməklə mütləq ifadədə 18384,0 milyon manat proqnozlaşdırılır ki, bu da 2013-cü illə müqayisədə 775,0 milyon manat və ya 4,0 faiz az, 2012-ci ilin icrası ilə müqayisədə isə 1102,5 milyon manat və ya 6,4 faiz çoxdur.




Gəlirlərin 12139,0 milyon manatı və ya 66,0 faizi neft, 6245,0 milyon manatı və ya 34,0 faizi isə qeyri-neft sektoru üzrə daxilolmaların payına düşəcəkdir.




Vergilər Nazirliyi üzrə 7102,0 milyon manat vəsaitin yığılması nəzərdə tutulur ki, bu da 2013-cü ilin proqnozu ilə müqayisədə 702,0 milyon manat və ya 11,0 faiz çox, qeyri-neft sektoru üzrə isə 540,0 milyon manat və ya 14,4 faiz çoxdur.

Dövlət Gömrük Komitəsinin xətti ilə toplanacaq vergi və rüsumlar üzrə daxilolmanın 1510,0 milyon manat olacağı nəzərdə tutulur ki, bu da 2013-cü ilin proqnozu ilə müqayisədə 130,0 milyon manat və ya 9,4 faiz çoxdur.

2014-cü il ərzində Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin məbləğinin 9337,0 milyon manat olacağı proqnozlaşdırılır.

Büdcə təşkilatlarının ödənişli xidmətlərindən 400,0 milyon manat, digər mənbələrdən isə 35,0 milyon manat vəsaitin dövlət büdcəsinə daxil olması nəzərdə tutulur.

**2014-cü il dövlət büdcəsinin bəzi tədiyyə növləri üzrə gəlirləri və onların ümumi gəlirlərdə xüsusi çəkisi**



## 4.5. 2014-cü il üzrə dövlət büdcəsinin xərcləri

2014-cü il dövlət büdcəsinin xərcləri ümumi daxili məhsulun 34,3 faizi həcmində nəzərdə tutulmaqla 20063,0 milyon manat proqnozlaşdırılır ki, bu da 2013-cü ilə nisbətən 213,0 milyon manat və ya 1,1 faiz, 2012-ci ilin icrası illə müqayisədə isə 2646,5 milyon manat və ya 15,2 faiz çoxdur.




2014-cü il dövlət büdcəsinin xərclərinin strukturuna daxil olan cari xərclərə 10881,5 milyon manat və ya ümumi xərclərin 54,2 faizi, əsaslı xərclərə 8401,0 milyon manat və ya ümumi xərclərin 41,9 faizi həcmində, dövlət borcuna xidmətlə bağlı xərclərə isə 780,5 milyon manat və ya ümumi xərclərin 3,9 faizi həcmində vəsait yönəldiləcəkdir.



Funksional istiqamətlərə uyğun olaraq 2014-cü il dövlət büdcəsinin xərcləri aşağıdakı kimi nəzərdə tutulur.

| | Məbləğ, milyon manatla | Dövlət büdcəsində xüsusi çəkisi, faizlə |
|---|---|---|
| Ümumi dövlət xidmətləri | 1997,6 | 10,0 |
| Müdafiə | 1637,4 | 8,2 |
| Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 1240,3 | 6,2 |
| Təhsil | 1653,4 | 8,2 |
| Səhiyyə | 725,6 | 3,6 |
| Sosial müdafiə və sosial təminat | 2072,2 | 10,3 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 311,4 | 1,6 |
| Mənzil və kommunal təsərrüfatı | 457,1 | 2,3 |
| Yanacaq və enerji | 3,5 | |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi | 562,9 | 2,8 |
| Sənaye, tikinti və faydalı qazıntılar | 6282,0 | 31,3 |
| Nəqliyyat və rabitə | 121,4 | 0,6 |
| İqtisadi fəaliyyət | 328,2 | 1,6 |
| Əsas bölmələrə aid edilməyən xidmətlər | 2670,0 | 13,3 |

Dövlət xərcləri üzrə struktur islahatlarının davam etdirilməsi, ölkənin müdafiə qüdrətinin daha da yaxşılaşdırılması, 2013-cü ildə dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlarda çalışan işçilərin əməkhaqlarının və ölkə üzrə bir sıra sosial ödənişlərin artırılması, yeni təşkilatların fəaliyyətə başlaması (Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Fondu, Azərbaycan Polad İstehsalat Kompleksi, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, Xüsusi iqtisadi zonaların texnoparkları), Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN xidmət" mərkəzinin fəaliyyətinin genişləndirilməsi, bəzi təşkilatlarda ştat sayının artması (Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası, Azərbaycan Respublikasının Hərbi Prokurorluğu və s.) və yenidən komplektləşdirilməsi, yeni dövlət proqramlarının təsdiq və fondların təsis

edilməsi, ilk dəfə olaraq Azərbaycan Respublikasının ərazisində keçiriləcək I Avropa Olimpiya oyunlarının, əvvəlcədən dövlət büdcəsində nəzərdə tutulması mümkün olmayan tədbirlərin maliyyələşdirilməsi, dövlət müəssisələrinin zərərinin ödənilməsi və maliyyə sağlamlaşdırılması, dövlət borclarına xidmətlə bağlı xərclər, ərzaq, dərman, cari təmir, dəftərxana və təsərrüfat malları və digər xərclər üzrə xərc normalarının orta respublika göstəricilərinə uyğunlaşdırılması, "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun xərclərinin artırılması və digər zəruri məsələlərin həlli üçün vəsaitin proqnozlaşdırılması hesabına 2014-cü il dövlət büdcəsinin cari xərcləri artırılmışdır.

Ölkə əhalisinin rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində məqsədyönlü kurs 2014-cü ildə də davam etdiriləcəkdir. Həmin kursa uyğun olaraq 2013-cü ildə əməkhaqlarında baş vermiş artımın maliyyə təminatı ilə bağlı xərclərin, zəruri sosial tədbirlərdən olan sosial müavinətlərin və təqaüdlərin, o cümlədən yaşa (16,4 min nəfər), əlilliyə (108,3 min nəfər), ailə başçısını itirməyə (39,5 min nəfər), uşağın anadan olmasına görə (112,4 min nəfər), sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlara (63,6 min nəfər), valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqlara (0,8 min nəfər), şəhid uşaqlarına (0,4 min nəfər), müharibə əlillərinin uşaqlarına (18,4 min nəfər), radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə (5,5 min nəfər), müharibə veteranlarına (53,7 min nəfər) verilən müavinətlərin, dəfn üçün nəzərdə tutulan müavinətin, əmək pensiyalarının minimum məbləğinin (1270,0 min nəfər), məcburi köçkünlərə yemək xərci üçün verilən aylıq müavinətin (540,0 min nəfər), şəhid ailəsi (13,8 min ailə), müharibə əlilləri (18,8 min nəfər) üçün və Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə (0,2 min nəfər), "Xalq" və "Əməkdar" fəxri adlarına layiq görülmüş şəxslərə (5 min nəfər) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün, ali, orta ixtisas, ilk peşə-ixtisas təhsili sistemində oxuyan tələbə və şagirdlərə, doktorantlara (85,8 min nəfər) verilən təqaüdlərin, eləcə də elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələrinə görə vəzifə maaşına əlavələrin artırılması tədbirlərinin 2014-cü ildə maliyyə təminatı təmin edilmişdir.

## 4.5.1. Ümumi dövlət xidmətləri

2014-cü ildə Ümumi dövlət xidmətlərinə 1997,6 milyon manat vəsait ayrılacaqdır ki, bu da dövlət büdcəsi xərclərinin 10,0 faizi deməkdir.

"Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Ümumi dövlət xidmətləri bölməsi üzrə xərclərin istiqamətləri aşağıdakı kimidir.

| | Məbləğ, milyon manatla | Dövlət büdcəsində xüsusi çəkisi, faizlə |
|---|---|---|
| **Ümumi dövlət xidmətləri** | 1997,6 | 10,0 |
| **o cümlədən:** | | |
| **qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının** | | |

| | Məbləğ, milyon manatla | Dövlət büdcəsində xüsusi çəkisi, faizlə |
|---|---|---|
| **saxlanılması** | 526,5 | 2,6 |
| **beynəlxalq fəaliyyət və beynəlxalq təşkilatlara üzvlük haqqı** | 205,4 | 1,0 |
| **elm** | 146,8 | 0,6 |
| **başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidməti (ölkədə müxtəlif seçkilərin, referendumların keçirilməsi, dairə və məntəqə seçki komissiyalarının saxlanılması, seçici siyahılarının dəqiqləşdirilməsi, ststistikada sistemində islahatların aparılması və s.)** | 49,5 | 0,2 |
| **dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclər** | 780,5 | 3,9 |
| **yerli (bələdiyyə) büdcələrə verilən dotasiya** | 5,2 | |
| **Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya** | 283,7 | 1,4 |

Bu bölməyə aid olan "Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanılması" köməkçi bölmədən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Azərbaycan Respublikasının Milli Məclisinin, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilin (Ombudsman), nazirliklərin, dövlət komitələrinin, komissiyalarının, agentliklərin və digər dövlət hakimiyyəti orqanlarının saxlanılması xərcləri maliyyələşdirlir.

Köməkçi bölmə üzrə 2013-cü ilin dövlət büdcəsi ilə müqayisədə 85,9 milyon manat və ya 19,5 faiz çox vəsait nəzərdə tutulmuşdur ki, bunun da 59,3 milyon manatı büdcə təşkilatlarının ödənişli xidmətlərdən əldə etdikləri daxilolmalar üzrə xərclərin, 3,4 milyon manatı yeni tariflərin tətbiqi ilə bağlı əlavə yaranacaq xərclərin payına düşür.

Bu xərclər əsasən qeyd olunan orqanların aparatlarının saxlanılması, onlar tərəfindən göstərilən xidmətlər, həmçinin, bu orqanlar tərəfindən öz sahələrindəki vəziyyət haqqında məlumatların yığılması, onların yoxlanılması, idarə edilməsi və ya onlara yardım edilməsi ilə bağlı xərclər daxildir.

Dövlət orqanlarının şəffaf fəaliyyət göstərməsi, onların fəaliyyəti barədə məlumatların vətəndaşlar üçün əlçatan və açıq şəkildə əldə olunması məqsədi ilə dövlət orqanlarının rəsmi internet səhifələrinin yaradılması və istismarı, dövlət orqanlarının elektron xidmət göstərməsinin təşkili ilə bağlı xərclər də bu köməkçi bölmədə nəzərdə tutulmuşdur.

Beynəlxalq fəaliyyət və beynəlxalq təşkilatlara üzvlük haqqı xərcləri özündə Azərbaycan Respublikasının beynəlxalq fəaliyyəti ilə bağlı xərcləri, o cümlədən

Azərbaycan Respublikasının xaricdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin və konsulluqlarının saxlanılması, Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq maliyyə-kredit təşkilatlarının səhm kapitalında iştirakı ilə bağlı xərcləri, beynəlxalq ictimai-siyasi təşkilatlara üzvlük haqqı, ianə və digər ödənişləri birləşdirir.

Elm xərclərindən yeni biliklər əldə edilməklə Azərbaycanın iqtisadi, sosial və mənəvi inkişafına xidmət edilməsi ilə bağlı elmi təşkilatlar tərəfindən həyata keçirilən işlərin ödənilməsi, elmi orqanların saxlanılması həyata keçirilir.



2014-cü il dövlət büdcəsinin elm xərclərindən Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Sərəncamının icrası olaraq Azərbaycan dilində əvvəllər kiril qrafikasında çap olunmuş əsərlərin latın qrafikası ilə yenidən nəşrinə, elmi-tədqiqat layihələrinin həyata keçirilməsinə, Cənubi Xəzər çökəkliyinin Azərbaycan hissəsinin karbohidrogen potensialının və geodinamikasının öyrənilməsinə, elmi-tədqiqat işlərinin aparılmasına, Milli Elmlər Akademiyasının elmi-tədqiqat institutlarına müasir tələblərə cavab verən laboratoriya avadanlıqlarının alınmasına, Azərbaycan Respublikasında heyvandarlığın inkişaf etdirilməsi ilə əlaqədar yüksək keyfiyyətli, beynəlxalq standartlara, uyğun damazlığ toxum bankının yaradılmasına, elmi-tədqiqat və tədris müəssisələrinin təcrübə təsərrüfatlarında orijinal, superelit və elit toxumlarının istehsalı və satışına və digər tədbirlərin həyata keçirilməsinə vəsait nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasında elmi təşkilatlar, təhsil müəssisələri, digər müvafiq qurumlar və fiziki şəxslər tərəfindən təqdim olunmuş təbiət, texniki, humanitar və ictimai elmlər sahəsində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli elmi tədqiqat proqramları və layihələrini və digər elmi tədbirləri qrant şəklində ünvanlı maliyyələşdirmək, alimlərin elmi fəaliyyətini stimullaşdırmaq və onlara azad yaradıcılıq imkanı yaratmaq, habelə elm müəssisələrinin fəaliyyətinin təkmilləşməsini nəzərdə tutan və inkişafını dəstəkləyən tədbirləri həyata keçirmək yolu ilə Azərbaycanda elmi-texniki potensialı qorumaq və inkişaf etdirmək, iqtisadiyyatın inkişafında bu potensialdan səmərəli istifadə etmək, mühüm sosial problemlərin həllində elm və texnikanın rolunu yüksəltmək və dövlətin elmi informasiya və innovasiya ehtiyatlarını artırmaq məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fonduna 2014-cü ildə 8,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Ölkənin inkişafının müxtəlif istiqamətləri, o cümlədən geosiyasət, təhlükəsizlik, dövlət quruculuğu, regionların inkişafı, mövcud problemlərin həlli və digər mühüm sahələr üzrə elmi araşdırmaların nəticələrini və proqnoz-analitik xarakterli məlumatları hazırlamaq

məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinə 2014-cü ildə 2,3 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Elm xərclərindən Azərbaycan Milli Elmlər Akademiyası, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu və Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan elmi-tədqiqat müəssisələri, bir çox universitetlərin elmi fəaliyyətləri və digər təşkilatlar və tədbirlər maliyyələşdirlir.

Başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidmətləri xərclərindən əsasən ölkədə seçicilərin qeydiyyatı, seçkilərin, referendumların keçirilməsi, respublika miqyaslı siyahıyaalınma və statistika sistemində islahatların aparılması xərcləri maliyyələşdirilir. 2014-cü ildə bu xərclərə seçici siyahılarının dəqiqləşdirilməsi, seçki orqanlarının (dairə seçki komissiyalarının) saxlanılması, statistika sistemində islahatların aparılması ilə bağlı xərclər aiddir. Həmçinin, 2014-cü ildə bələdiyyə seçkilərinin keçirilməsi ilə bağlı xərclər də bu köməkçi bölmədən maliyyələşdiriləcəkdir. Bələdiyyə seçkilərinin keçirilməsi üçün 36,6 milyon manat vəsait nəzərdə tutulmuşdur.







2014-cü ildə Ümumi dövlət xidməti xərclərindən blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasına xərclərinin tənzimlənməsi üçün 283,7 milyon manat dotasiya nəzərdə tutulmuşdur.

Yerli özünüidarəetmə orqanlarının – bələdiyyələrin fəaliyyət göstərmələri üçün 2014-cü il dövlət büdcəsindən 5,2 milyon manat məbləğində maliyyə yardımı ayrılacaqdır.

## 4.4.2. Müdafiə xərcləri

Vahid büdcə təsnifatına əsasən “Müdafiə” bölməsi “Müdafiə qüvvələri”, “Milli təhlükəsizlik”, “Müdafiə və təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar” və “Digər kateqoriyalara aid edilməyənlər” köməkçi bölmələrindən ibarətdir.

Azərbaycanın 20 faiz ərazisinin işğal altında olduğu bir zaman ən əsas məsələlərdən biri ordunun gücləndirilməsi və onun dünya standartlarının tələbləri səviyyəsində təchizatının təşkilidir. Bu məqsədlə son illər dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə ayrılan vəsaitin həcmi durmadan artmaqdadır. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin gücləndirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi üçün (xüsusi müdafiə təyinatlı layihələrin və tədbirlərin maliyyə təminatı ilə bağlı əsas bölmələrə aid edilməyən xərclərdə



nəzərdə tutulmuş vəsait də nəzərə alınmaqla) müdafiə xərclərinə 2014-cü il dövlət büdcəsi xərclərinin 14,7 faizi həcmində vəsait nəzərdə tutulmuşdur.

Bu sahələrə ayrılan vəsait ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsinə, dövlətin müdafiə və təhlükəsizlik tədbirlərinin həyata keçirilməsinə, dövlət sərhədinin mühafizəsinə, kəşfiyyat, əks-kəşfiyyat fəaliyyəti, dövlət sirrinin mühafizəsi, hərbi qulluqçuların sosial-hüquqi müdafiəsinə, ordunun maddi-texniki



bazasının möhkəmləndirilməsinə, hərbi-sənaye potensialının inkişaf etdirilməsinə və digər məqsədlərə yönəldiləcəkdir.

Dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu xərclərindən də bu istiqamətdə müvafiq məbləğdə vəsait yönəldiləcəkdir.

Müdafiə xərcləri bölməsindən Müdafiə Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Müdafiə Sənayesi Nazirliyi və Dövlət Sərhəd Xidməti maliyyələşdirilir.

## 4.5.3. Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq

2014-cü ildə Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq xərclərinə dövlət büdcəsi xərclərinin 5,6 fazi həcmində vəsait ayrılması nəzərdə tutulur.

Bölmənin xərclərindən məhkəmə, prokurorluq, hüquq-mühafizə orqanlarının saxlanılması və onların fəaliyyətinin təşkili ilə bağlı xərclər aid edilir.

2014-cü il dövlət büdcəsindən Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və



prokurorluq bölməsi üzrə ayrılacaq vəsait əsasən məhkəmə sistemində islahatların aparılması, məhkəmə və prokurorluq orqanlarının saxlanılması, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin aşkarlanması, qabaqlanması, qarşısının alınması və açılması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, dövlət material ehtiyatları fondlarının yaradılması, qanuni qüvvə almış məhkəmə qərarlarına müvafiq olaraq vətəndaşların, mülkiyyət formasından asılı olmayaraq idarələrin, müəssisələrin, təşkilatların pozulmuş hüquqlarının bərpa edilməsi, məhkumlara təyin edilmiş cəzanın çəkilməsini təmin edilməsi və bu kimi digər sahələrdə həyata keçirilən fəaliyyətlərin maliyyələşdirilməsinə yönəldiləcəkdir.



Bölmənin xərclərindən Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, apellyasiya məhkəmələri, şəhər və rayon məhkəmələri, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Gömrük Komitəsi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Miqrasiya Xidməti, Nazirlər Kabineti yanında Dövlət

Feldyeger Xidməti, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsi, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti, Baş Prokurorluq, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın işçi qrupu, Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının işçi qrupu və digər orqanlar maliyyələşdirilir.

Dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu xərclərindən də bu bölməyə müvafiq məbləğdə vəsait yönəldiləcəkdir.

### 4.5.4. Təhsil xərcləri



2014-cü ildə təhsil xərcləri üçün 1653,4 milyon manat, 2013-cü illə müqayisədə 123,0 milyon manat və yaxud 8,0 faiz çox vəsait ayrılmışdır. Təhsil xərclərinə ayrılan vəsaitin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 8,2 faiz olacaqdır.

2014-cü il dövlət büdcəsindən məktəbəqədər və ibtidai təhsilə 158,7 milyon manat, natamam və orta təhsilə 851,0 milyon manat, internat və xüsusi məktəblərə 43,2 milyon manat, texniki-peşə məktəbləri və liseylərə 78,6 milyon manat, ali təhsilə 33,0 milyon manat, təhsil sahəsində tətbiqi tədqiqatlara 5,0 milyon manat və təhsil sahəsində digər xidmətlərə 483,9 milyon manat vəsait yönəldiləcəkdir.




Ayrılmış vəsaitlər “Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı”na və “2013-2021-ci illərdə Azərbaycan Təhsilinin İnkişafı üzrə Milli Strategiya”ya uyğun olaraq təhsil sisteminin inkişafına yönəldilmiş dövlət proqramlarının və layihələrin həyata keçirilməsinə, təhsil infrastrukturlarının müasir tələblərə uyğun qurulmasına, təhsilin məzmununun yeniləşməsinə və yeni informasiya-kommunukasiya texnologiyalarının tətbiqinə maliyyə təminatı yaradacaqdır. Belə proqram və tədbirlər kimi məktəblərin informasiya və kommunikasiya texnologiyaları və ölkənin ümumtəhsil məktəblərində oxuyan şagirdlərin pulsuz dərsliklərlə təminatını, ümumtəhsil məktəblərinə tədris

laboratoriya (fizika, kimya, biologiya) avadanlıqlarının alınmasını, məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsini və müasir informasiya texnologiyaları ilə təchizatını göstərmək olar.

**Təhsil xərcləri (cari) və onun artım sürəti *(mln. manatla, faizlə)***




Təhsil sahəsində həyata keçiriləcək proqram və tədbirlər əsasən aşağıdakılardır:

- Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli 3043 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf üzrə Dövlət Proqramı”nın icrası olaraq dövlət ümumtəhsil məktəblərində oxuyan bütün şagirdlərin dövlət tərəfindən pulsuz dərsliklərlə təmin olunması üçün 8,0 milyon manat nəzərdə tutulmuşdur;



- Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 iyun tarixli 2856 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2008-2014-cü illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı” üzrə Azərbaycan Respublikası təhsil sisteminin informasiya infrastrukturunun yaradılması, informasiya texnologiyaları əsasında müasir təhsilin metodologiyasının işlənib hazırlanması, şagirdlər üçün təhsil portalının, saytının və distant təhsil xidmətinin yaradılması məqsədilə ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları təchizatı üçün 16,8 milyon manat xərc aparılacaqdır.

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 3 fevral tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı” üzrə Respublikada xüsusi qayğıya ehtiyacı olan uşaqların qeydiyyatını apararaq təhsilə cəlb olunması işinin təkmilləşdirilməsi məqsədilə 0,3 milyon manat proqnozlaşdırılır.

- Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 mart tarixli 1386 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ

qayğı Dövlət Proqramı (2006-2015-ci illər)"nın icrası üzrə uşaq evləri və internat tipli dövlət uşaq müəssisələrinin sayının azaldılması, dövlət uşaq müəssisələrinin uşaqlar üçün ailə əsaslı sosial xidmət mərkəzlərinə çevrilməsi, uşaqların ailələrə verilməsi imkanlarının genişləndirilməsi və stimullaşdırılması mexanizmlərinin tətbiqi üçün 2014-cü ilin büdcəsində 1,5 milyon manat proqnozlaşdırılır;



- Azərbaycan Respublikasında məktəbəqədər təhsilin maliyyələşdirilməsi üzrə Respublikada fəaliyyət göstərən uşaq bağçaları, körpələr evi-uşaq bağçalarında tədris alan erkən yaşlı uşaqların biliklərinin və məktəbə hazırlıq vərdişlərinin inkişaf etdirilməsi məqsədi ilə 2014-cü ilin büdcəsində 6,7 milyon manat vəsait nəzərdə tutulmuşdur;

- Ən yaxşı ümumtəhsil məktəbinin və ən yaxşı müəllimin hər birinə müvafiq olaraq 10,0 min manat və 5,0 min manat mükafatlar verilməsi məqsədi ilə dövlət büdcəsində 1,0 milyon manat vəsait proqnozlaşdırılmışdır;

- Ümumtəhsil məktəblərinə tədris laboratoriya (fizika, kimya, biologiya) avadanlıqların alınması üçün 4,5 milyon manat vəsait nəzərdə tutulmuşdur;

- Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 may tarixli 260 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı" üzrə şahmat mütəxəssislərinin hazırlanması və əlavə təhsili sistemini təkmilləşdirmək, şahmat sahəsində qabaqcıl texnologiyaların, kompüter və kompüter proqramlarının tətbiqi işini sürətləndirmək məqsədi ilə 1,8 milyon manat vəsait nəzərdə tutulmuşdur.



- Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 may tarixli 295 nömrəli Sərəncamı ilə "2009-2014-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın icrası olaraq Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə" 2012-ci il 10 fevral tarixli 220 nömrəli Fərmanı təsdiq edilmişdir. Maliyyə tələbatı məsələlərinin həlli üçün növbəti ilin dövlət büdcəsi layihəsində 130,4 milyon manat vəsait nəzərdə tutulmuşdur.

2014-cü ilin dövlət büdcəsində Azərbaycan Respublikasının bəzi xarici ölkələrdəki diplomatik orqanlarında təhsil məsələləri üzrə müşavirlərin fəaliyyəti ilə bağlı xərclər və "UNİCEF" tərəfindən 10 həftəlik pilot layihə kimi məktəbə hazırlıq təhsilinin yeni modelinin tətbiqi ilə bağlı xərclər üçün müvafiq məbləğdə vəsait nəzərdə tutulmuşdur.

Dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu xərclərindən də bu bölməyə müvafiq məbləğdə vəsait yönəldiləcəkdir.

### 4.5.5. Səhiyyə xərcləri

2014-cü ildə səhiyyə xərcləri üçün 725,6 milyon manat, 2013-cü illə müqayisədə 56,3 milyon manat və yaxud 8,4 faiz çox vəsait ayrılmışdır. Səhiyyə xərclərinə ayrılan vəsaitin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 3,6 faiz olacaqdır.




2014-cü il dövlət büdcəsinin səhiyyə xərclərindən poliklinikalar və ambulatoriyalara 106,0 milyon manat, xəstəxanalara 367,2 milyon manat, səhiyyə sahəsində digər xidmətlərə 6,2 milyon manat, səhiyyə sahəsində tətbiqi tədqiqatlara 5,6 milyon manat, səhiyyə sahəsinə aid edilən digər xidmətlərə 240,6 milyon manat vəsait nəzərdə tutulmuşdur.

**Səhiyyə xərcləri (cari) və onun artım sürəti (mln. manatla, faizlə)**



2014-cü il dövlət büdcəsindən Səhiyyə sisteminə ayrılacaq vəsait səhiyyənin maddi-texniki bazasının güclənməsinə, müasir tibbi avadanlıq və qurğularla təchizatının beynəlxalq standartlara uyğunlaşdırılmasına, yeni tibb mərkəzlərinin yaradılması istiqamətində genişmiqyaslı işlərin görülməsinə, bütövlükdə səhiyyə sisitemində struktur islahatlarının həyata keçirilməsinə və tibbi xidmətin səviyyəsinin yaxşılaşmasına imkan verəcəkdir. Bu bölməyə əhalinin saglamlığının qorunması sahəsində əhaliyə tibb xidməti göstərən poliknikaların, ambulatoriytaların, xəstəxanaların, qanköçürmə stansiyalarının və digər səhiyyə müəssisələrinin saxlanılması ilə bağlı xərclər daxildir.



Eyni zamanda 2014-cü il dövlət büdcəsindən Səhiyyə bölməsi üzrə aşağıdakı proqram və tədbirlər maliyyələşdiriləcəkdir:

- Onkoloji xəstəliyə düçar olmuş şəxslərin həyat tərzinin yaxşılaşdırılması və ömürlərinin uzadılması, onların dərman preparatlarına olan tələbatının ödənilməsi, onkoloji xəstəlik nəticəsində əmələ gələn əlilliyin, sağlamlıq imkanları məhdudluğunun və ölüm hallarının azaldılması, Onkoloji xidmət göstərən tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi və müasir tibb avadanlığı ilə təchizatının yaxşılaşdırılması və bu kimi digər məqsədlərə 38,9 milyon manat;



- Hemofiliya və talassemiya irsi qan xəstəliyinə düçar olmuş şəxslərə göstərilən tibbi yardımın təkmilləşdirilməsi, bu şəxslərin qan komponentləri, dərman preparatları və tibbi materiallar və digər ləvazimatlarla tam təmin edilməsi, hemofiliya və talassemiya xəstələrin ömürlərinin uzadılması, həyat keyfiyyətinin yaxşılaşdırılması, bu xəstəlikdən əlillik və ölüm hallarının azaldılması, hemofiliya və talassemiyalı uşaqların doğulmasının qarşısının alınması, hemofiliyalı xəstələrdə qanaxmaların profilaktikası məqsədi ilə faktor preparatları ilə müalicənin təşkili və bu kimi işlərin həyata keçirilməsi üçün 21,2 milyon manat ( “2011-2015-ci illər üçün hemofiliya xəstəliyi üzrə Tədbirlər Proqramı” və “2011-2015-ci illər üçün talassemiyanın müalicə və profilaktikası üzrə Tədbirlər Proqramı”, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları);



- Şəkərli diabet xəstəliyinin yayılmasının qarşısının alınması, şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələri ilə təminatının yaxşılaşdırılması, əhalinin şəkərli diabetə dair maarifləndirilməsi, şəkərli diabet xəstələrinin ömürlərinin uzadılması, həyat keyfiyyətinin yaxşılaşdırılması və bu xəstəlikdən əlillik və ölüm hallarının azaldılması məqsədilə 33,7 milyon manat ( “2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər Proqramı”, Azərbaycan Respublikası Nazirlər Kabinetinin



2011-ci il 26 noyabr tarixli 222 nömrəli Qərarı);

- Xəstələrin keyfiyyətli qan və qan komponentləri ilə tam təmin olunması və əhaliyə göstərilən transfuzioloji yardımın səviyyəsinin artırılması, tədarük edilən və istifadə olunan qan və onun komponentlərinin təhlükəsizliyinin təmin edilməsi, qan xidməti müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, qan və qan komponentlərinin donorluğunun inkişaf etdirilməsi, donorluğun təbliği tədbirlərinə 1,6 milyon manat ("2011-2015-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 dekabr tarixli 233 nömrəli Qərarı);



- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 noyabr tarixli 227 nömrəli Qərarı ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün xroniki böyrək çatışmazlığı üzrə Tədbirlər Proqramı"nın icrası olaraq xroniki böyrək çatışmazlığı ilə xəstə olan şəxslər üçün ixtisaslaşdırılmış nefroloji xidmətin təşkili, onların dərman preparatları ilə təmin olunması və bu xəstəliyin fəsadlarının profilaktikası məqsədilə 27,8 milyon manat vəsait ayrılacaqdır;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 noyabr tarixli 225 nömrəli Qərarı ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın icrası olaraq respublika ərazisində bəzi yoluxucu xəstəliklərin və infeksiyaların qarşısının alınması məqsədilə nəzarət sisteminin təkmilləşdirilməsi, əhalinin xüsusi təbəqələrinin peyvənd almalarının planlaşdırılması, immunlaşdırmanın təhlükəsizliyinin yüksəldilməsi, vaksinlərin fasiləsiz alınması, daşınması, saxlanılması və yerlərə çatdırılması, müvafiq laboratoriyaların fəaliyyətlərinin gücləndirilməsi işləri növbəti ildə də davam etdirilməklə bü məqsədlərə 4,5 milyon manat xərc aparılması proqnozlaşdırılır;

- Ana və uşaqların sağlamlığının möhkəmləndirilməsinə, əhalinin reproduktiv sağlamlığının qorunmasının təşkilinin və təhlükəsiz analığın təmin edilməsinə, sağlam və arzuolunan uşaqların doğulması üçün zəruri şəraitin yaradılmasına, ana və uşaqlar arasında xəstələnmə və ölüm hallarının azaldılmasına, doğuşayardım müəssisələrinin dərman preparatları ilə təminatının yaxşılaşdırılmasına, mama-ginekoloji və neonatoloji xidmətin təkmilləşdirilməsinə məqsədilə 2,0 milyon manat;



- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 noyabr tarixli 226 nömrəli Qərarı ilə təsdiq edilmiş "2011-2015-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı"nın icrası olaraq müvafiq dispanserdə qeydiyyata götürülmüş vərəm xəstələrinin profilaktikası, xəstəliyin yayılmasının qarşısının alınması, diaqnostikası və müalicəsinin yaxşılaşdırılması, xəstələrin vərəm əleyhinə preparatlarla davamlı təminatı məqsədlərinə 3,0 milyon manat xərc aparılması proqnozlaşdırılır;

- Azərbaycan Respublikasında HİV/AİDS-in qarşısının alınması və onunla mübarizə xərcləri üçün 3,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

2014-cü ilin dövlət büdcəsinin səhiyyə xərcləri bölməsində  dağınıq skleroz xəstəliyinə tutulmuş insanların müalicə tədbirləri üçün 5,0 mln. manat vəsait nəzərdə tutulmuşdur.

Dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu xərclərindən də bu bölməyə müvafiq məbləğdə vəsait yönəldiləcəkdir.

## 4.5.6. Sosial müdafiə və sosial təminat xərcləri

2014-cü ildə sosial müdafiə və sosial təminat xərcləri üçün 2072,2 milyon manat, 2013-cü illə müqayisədə 258,7 milyon manat və yaxud 14,3 faiz çox vəsait ayrılmışdır. Bu xərclərə ayrılan vəsaitin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 10,3 faiz olacaqdır.

**Sosial müdafiə və sosial təminat xərcləri (cari) və onun artım sürəti (mln. manatla, faizlə)**




Bu bölmədən əmək münasibətləri, əməyin mühafizəsi, əmək ehtiyatlarından istifadə, əhalinin sosial müdafiəsi, əhalinin məşğulluğu, tibbi-sosial ekspertiza, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası sahəsində, əmək pensiyalarının, sosial müavinətlərin, ünvanlı dövlət sosial yardımının ödənişi, qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi, əlillərin sanatoriya-kurort müalicəsinin təşkili, əlillərə eşitmə aparatlarının, protezləşdirmə məmulatlarının, əlil arabalarının və nəqliyyat vasitələrinin alınması xərcləri maliyyələşdirilir.



“Aztəminatlı ailələrin sosial reabilitasiyası Proqramı” layihəsi çərçivəsində məşğulluq, peşə təlimi, sosial xidmət, tibbi-sosial reabilitasiya, layiqli əməyin təmin edilməsi, məktəbdən işə, ailə kəndli təsərrüfatlarına və kiçik biznesə dəstək, natural formada yardım və digər sahələri əhatə edən aktiv tədbirlər həyata keçiriləcəkdir.

Əmək pensiyalarının baza hissəsi mütəmadi olaraq artırılaraq Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 2013-cü il 01 sentyabr tarixinə 100 manata çatdırılmışdır.

2014-cü ilin dövlət büdcəsində Dövlət Sosial Müdafiə Fonduna 1142,0 milyon manat məbləğində dövlət büdcəsindən ayırmalar (transfert) nəzərdə tutulmuşdur.

Ünvanlı dövlət sosial yardımı mexanizmininin tətbiqinə 2006-cı ilin iyul ayından başlanılmış, bu yardımın həyata keçirilməsi üçün müəyyənləşdirilmiş ehtiyac meyarı 30 manatdan 2014-cü ilin əvvəlinə 100 manata çatdırılmışdır.

Sosial cəhətdən xüsusilə həssas əhali qruplarından olan əlillərin və Azərbaycan Respublikası ərazisinin bütövlüyü uğrunda xidmət göstərərək şəhid olmuş şəxslərin ailələrinin sosial müdafiəsi istiqamətində Qarabağ şəhidlərinin ailələri və əlillərin mənzillə təmin olunması üzrə işlər davam etdirilməkdədir.

Ölkəmizdə sosial müavinətlər sistemi 2006-cı ildən etibarən “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə fəaliyyət göstərməyə başlamışdır. Sosial müavinətlər əmək pensiyası almaq hüququ olmayan şəxslərə verilir və onların yaşayışını minimal səviyyədə təmin etmək məqsədi güdür.



Sosial müavinətlər aylıq və birdəfəlik müavinətlərə bölünürlər:

Aylıq müavinətlərin məbləğləri aşağıdakı kimi təsdiq olunmuşdur.

| Aylıq müavinətlər | Məbləğ |
|---|---|
| **Yaşa görə müavinət** | 60 manat |
| **Əlillik “ümumi xəstəlik”, “hərbi xidmət dövründə xəstələnmə”, “əmək zədəsi və peşə xəstəliyi”, “hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar”, “Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar” səbəbindən baş verdikdə əlilliyə görə müavinət:** | |
| **I qrup əlillərə** | 67 manat |
| **II qrup əlillərə** | 50 manat |
| **III qrup əlillərə** | 43 manat |
| **əlillik “Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar” və “1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar” səbəbindən baş verdikdə:** | 83 manat |
| **I qrup əlillərə** | 66 manat |
| **II qrup əlillərə** | 60 manat |
| **III qrup əlillərə** | |

| | |
|---|---|
| **əlillik “Çernobıl AES-də hərbi xidmətlə əlaqədar” və ya “hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar” səbəbindən baş verdikdə:**<br><br>**I qrup əlillərə**<br>**II qrup əlillərə**<br>**III qrup əlillərə** | <br><br><br>77 manat<br>66 manat<br>50 manat |
| **sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara müavinət** | 67 manat |
| **ailə başçısını itirməyə görə müavinət** | 55 manat |
| **əmək pensiyası almaq hüququ olmayan Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etdiyinə görə müharibə veteranı adı almış şəxslərə, 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, 1941-1945-ci illərdə keçmiş sovet ordusunda (donanmasında), daxili işlər və dövlət təhlükəsizliyi orqanlarında hərbi xidmətdə olmuş, lakin döyüş əməliyyatlarında iştirak etməmiş, müharibə illərində orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə, başqa ölkələrin ərazisində gedən məhəlli müharibələrdə və hərbi münaqişələrdə hərbi birləşmələrin tərkibində iştirak etmiş şəxslərə və keçmiş SSRİ silahlı qüvvələrinin, Dövlət Təhlükəsizliyi Komitəsinin, Daxili İşlər Nazirliyinin mütəxəssisləri kimi iştirak etmiş şəxslərə müavinət** | 37 manat |
| **müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına müavinət** | 55 manat |
| **valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət** | 50 manat |
| **bir yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət** | 45 manat |
| **bəzi kateqoriya şəxslərin 16 yaşadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar üçün 18 yaşadək) uşaqlarına müavinət:**<br>**şəhid uşaqlarına**<br>**müharibə əlillərinin, 20 Yanvar hadisələri zamanı əlil olanların, Çernobıl qəzası nəticəsində I və II qrup əlil olmuş, yaxud vəfat etmiş valideynlərin uşaqlarına, habelə Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının dispanser qeydiyyatında olan uşaqlarına** | <br><br>17 manat<br><br><br><br>12 manat |

Əhaliyə verilən birdəflik müavinətlər aşağıdakılardır

| Birdəfəlik müavinətlər | Məbləğ |
|---|---|
| **radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün müavinət** | 195 manat |
| **uşağın anadan olmasına görə müavinət** | 90 manat |
| **dəfn üçün müavinət** | 120 manat. |

Uşağın anadan olmasına görə və dəfn üçün müavinətlər işləyənlərə və pensiyaçılara Dövlət Sosial Müdafiə Fondu tərəfindən məcburi dövlət sosial sığorta haqları hesabına, işləməyənlərə isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerli orqanları tərəfindən dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

Bildiyimiz kimi Ermənistan-Azərbaycan hərbi münaqişəsi nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuş, 1,0 milyondan çox qaçqın və məcburi köçkün öz doğma yerlərindən didərgin düşmüşlər. Hazırda qaçqın və məcburi köçkünlər respublikanın 68 şəhər və rayonunda 1600-dan çox obyektdə müvəqqəti məskunlaşmışdır.

Dövlət tərəfindən məcburi köçkünlərin əsas səhiyyə xidmətlərinə çıxış imkanlarının yaxşılaşdırılması istiqamətində bir sıra tədbirlər görülmüşdür: məcburi köçkünlərin dövlət tibb müəssisələri tərəfindən göstərilən bütün xidmətlərə görə ödənişdən azad edilməsi; məcburi köçkünlərin dövlət tibb müəssisələri tərəfindən müəyyən edilmiş bütün tibbi məhsullara görə ödənişlərdən azad edilməsi (məsələn, pulsuz dərmanlar və s.); məcburi köçkün uşaqların tam peyvəndlənməsi.

Hazırda hökumət tərəfindən qaçqın və məcburi köçkün gənclərin ali təhsilə həvəsləndirilməsi və onların dəstəklənməsi məqsədilə bir sıra imtiyazlar (dövlət ali təhsil müəssisələrinin ödənişli fakültələrində ödənişdən azad olunma, təhsil müəssisələrinin yataqxanalarından pulsuz istifadə etmə və s.) müəyyənləşdirilmişdir.

Qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsinin daha da yaxşılaşdırılması, habelə onların istifadə etdikləri kommunal xidmət haqlarının dövlət büdcəsi hesabına ödənilməsi məqsədilə 2014-cü ilin büdcəsində 212,8 milyon manat vəsait proqnozlaşdırılmışdır.

### 4.5.7. Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət

2014-cü il dövlət büdcəsində mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət xərcləri üçün 311,4 milyon manat, 2013-cü illə müqayisədə 21,7 milyon manat və yaxud 7,5 faiz çox vəsait ayrılmışdır. Həmin bölməyə ayrılan vəsaitin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 1,6 faiz təşkil edir.




Bu bölmədən mədəniyyət və turizmə, gənclərlə iş və idmana qayğı, milli mədəniyyətin və turizmin potensialının dünya mədəniyyət və turizm məkanına inteqrasiya olunmasına, milli mədəni irsin, dəyər və sərvətlərin qorunub saxlanılmasına, gənc nəslin cəmiyyətin fəal və aparıcı qüvvəsinə çevrilməsinə, nəşriyyat və kinematoqrafiyanın, peşəkar idmanın hərtərəfli inkişafına dövlət səviyyəsində həyata keçirilən fəaliyyətlər maliyyələşdirilir.



**Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət xərcləri (cari) və onun artım sürəti (mln. manatla, faizlə)**



Bölmənin xərclərindən kitabxanaların, muzeylərin, saray və mədəniyyət evlərinin, teatr, filarmoniyanın və bu kimi obyektlərin saxlanılması xərcləri daxil edilir.

Bölmə üzrə 2014-cü il dövlət büdcəsindən əsasən aşağıdakı proqram və tədbirlər maliyyələşdiriləcəkdir:



- kitabxana işi sahəsində dövlət siyasətinin həyata keçirilməsi, ölkədə tarixi-mədəni, ədəbi-bədii, elmi-fəlsəfi sərvətlərin toplanılması, mühafizəsi və onlardan istifadə imkanlarının artırılması, kitabxana-informasiya sahəsində yeni texnologiyaların tətbiqi və istifadəsi nəticəsində müasir kitabxana-informasiya infrastrukturunun yaradılması, istifadəçilərə göstərilən kitabxana-informasiya xidmətinin dünya standartları səviyyəsinə çatdırılması, əhalinin intellektual potensialının və bilik səviyyəsinin inkişafı, habelə fasiləsiz təhsilin təmin edilməsi üçün kitabxana-informasiya sahəsinə 1,5 milyon manat;



- milli mədəni sərvətə çevrilmiş Azərbaycan teatrının zəngin bədii irsinin və yaradıcılıq ənənələrinin qorunmasına, ümumbəşəri və milli dəyərlərin təbliğinə, dünya mədəniyyətinə inteqrasiyasına, informasiya və maliyyə resurslarından səmərəli istifadə edilməsinə və repertuarın günün tələblərinə uyğun formalaşması məqsədlərinə 4,0 milyon manat ("Azərbaycan teatrı 2009-2019-cu illərdə Dövlət Proqramı", Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 18 may tarixli 277 nömrəli Sərəncamı);

- milli kino ənənələrinin bərpa edilməsi, ölkədə kino istehsalının dirçəldilməsi, onun rəqəmli çəkiliş, səsyazma və başqa müasir texnoloji avadanlıqlarla təmin edilməsi, dövlət sifarişi ilə bədii, sənədli və cizgi filmlərinin istehsalı, filmlərin müasir texnologiyalar əsasında qorunub saxlanılmasının təmin olunması, beynəlxalq mədəni əlaqələrin genişləndirilməsi, xarici ölkələrdə uzun illərdən bəri saxlanılan milli filmlərin nüsxələrinin Azərbaycan Respublikasına qaytarılması və sahə üzrə digər lazımi islahatların aparılması məqsədi ilə 6,5 milyon manat ("Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı", Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 04 avqust tarixli 2961 nömrəli Sərəncamı);



- yaşlı və gənc nəsil yazıçıların, rəssam və bəstəkarların xüsusi təqaüd fonduna 0,6 milyon manat;

-Azərbaycan Respublikasının daxili və xarici siyasəti, mədəniyyəti, tarixi, sosial, iqtisadi inkişafı, elmi-texniki və turizm potensialı barədə təbligat işini genişləndirmək məqsədi ilə xarici ölkələrdə mədəniyyət mərkəzlərinin saxlanılması xərclərinə 2,0 milyon manat;

- gənclərin hərtərəfli inkişafı üçün şərait yaratmaq, gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin məlumatlılığını artırmaq, gənclərin özünüidarə və iqtisadi baxımdan təminetmə bacarıqlarının inkişaf etdirilmək, gənclərdə müasir

düşüncə tərzinin formalaşdırmaq, onların idarəetmə və tədqiqat yönlü fəaliyyətinə şərait yaratmaq, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərinin həllini təmin etmək, vətənpərvərlik və vətəndaşlıq hislərinin tərbiyəsi, gənclər arasında hüquq pozuntuları, narkomanlıq və digər neqativ halların profilaktikası, istedadlı və yaradıcı gənclərə dövlət qayğısı və məşğulluğun təmin edilməsi və s. tədbirlərin maliyyələşdirilməsi məqsədilə 16,8 milyon manat ("Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 07 iyul tarixli 1621 nömrəli Sərəncamı);

Turizmin inkişaf etdirilməsi, dövlət büdcəsindən regionlarda turizm fəaliyyətinin stimullaşdırılması, turizmdə informasiya-təbliğat işinin gücləndirilməsi məqsədilə mövcud informasiya mərkəzlərinin işinin təkmilləşdirilməsi, habelə xarici populyar ("National Geographic Channel", "BBC", "CNBC", "Euronews", "Travel Channel" və "CNN") televiziya şirkətləri vasitəsilə respublikamızın turizm imkanlarının təbliği üçün 0,7 milyon manat xərc nəzərdə tutulmuşdur.

İlk dəfə olaraq Azərbaycan Respublikasında keçiriləcək I Avropa Olimpiadasının təşkili, müvafiq avadanlıqların alınması və digər zəruri tədbirlərin həyata keçirilməsi ilə bağlı xərclər üçün dövlət büdcəsinin cari xərclərində müvaviq məbləğdə vəsait nəzərdə tutulmuşdur.

Qeyri-Hökumət Təşkilatlarını dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlərin həllinə cəlb etmək, dövlət orqanları ilə Qeyri-Hökumət Təşkilatları arasında əməkdaşlığı təşviq etmək, Qeyri-Hökumət Təşkilatlarına dövlət yardımı proqramlarını və layihələrini hazırlayıb həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına 4,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasında fikir, söz və məlumat azadlığını inkişaf etdirmək, kütləvi informasiya vasitələrinin müstəqilliyini dəstəkləmək, informasiya sektorunda yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqini stimullaşdırmaq, cəmiyyət və kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlığı genişləndirmək, jurnalistlərin peşəkarlığı və məsuliyyətinin artmasına şərait yaratmaq, sosial müdafiəsini gücləndirmək, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən, habelə kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşməsini nəzərdə tutan və inkişafını dəstəkləyən proqramları, layihələri və digər tədbirləri maliyyələşdirmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 3,9 milyon manat ayrılmışdır.

"Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanununun icrası üçün siyasi partiyaların fəaliyyətinə 2,5 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Bununla yanaşı, Azərbaycan həqiqətlərinin ATV İnternational (ATV İNT) beynəlxalq televiziya kanalı vasitəsi ilə xarici dillərdə dünya ictimaiyyətinə təqdim edilməsi məqsədi ilə 0,6 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu xərclərindən də bu bölməyə müvafiq məbləğdə vəsait yönəldiləcəkdir.

### 4.5.8. Mənzil və kommunal təsərrüfatı

Mənzil və kommunal təsərrüfatı xərcləri üçün 2014-cü il dövlət büdcəsində 457,1 milyon manat və ya 2013-cü illə müqayisədə 58,1 milyon manat və yaxud 14,6 faiz çox vəsait ayrılmışdır. Bu xərclər üçün ayrılan vəsaitin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 2,3 faizə çatacaqdır.

2014-cü il üçün nəzərdə tutulmuş vəsait hesabına mənzil fondunun əsaslı təmir olunması, küçə və keçidlərdə sanitar təmizlik işlərinin aparılması, yaşıllıq, park və xiyabanlara qulluq göstərilməsi, şəhərlərdə və rayon mərkəzlərində yerləşən avtomobil yolları, prospektlər və küçələrin əsaslı təmir olunması, ərazilərin abadlaşdırılması, işıqlandırılması və yaşıllaşdırılması planlaşdırılır.



Bu bölmədə Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə məcburi köçkünlər üçün salınmış qəsəbələrdə dövlət mənzil fondunun əsaslı təmiri ilə bağlı xərclərin maliyyələşdiriməsi üçün 0,5 milyon manat, həmin qəsəbələrdə abadlıq, yaşıllaşma işlərinin görülməsi və digər kommunal tədbirləri üçün 3,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinə mənzil fondunun istismarı, saxlanılması və əsaslı təmiri ilə bağlı xərclərin maliyyələşdirilməsi üçün 0,5 milyon manat vəsait, yaşıllıq, park və xiyabanlara qulluq göstərilməsi, küçə və keçidlərdə sanitar təmizlik işlərinin aparılması, yolların əsaslı təmiri və işıqlandırılmasına isə 2,2 milyon manat vəsait nəzərdə tutulmuşdur.



Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə magistral avtomobil yolları boyu torpaq və qorunma (mühafizə) zolağından kənarda yaşıllıqların salınması, onlara xidmət və landşaft quruluşu işlərinin yerinə yetirilməsi ilə bağlı xərclərin ödənilməsi üçün 8,1 milyon manat, su təsərrüfatı xərclərində çirkab sularının təmizləyici qurğularının istismarı və xidməti ilə bağlı xərclərin ödənilməsi üçün 0,6 milyon manat  nəzərdə tutulub.

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsinə bu bölmə üzrə 4,4 milyon manat nəzərdə tutulmuşdur ki, bu vəsait  Bulvar ərazisinin mühafizəsi, qorunması və bərpası, tarixi simasının saxlanılması, ərazinin zəngin florasının bərpası və inkişaf etdirilməsi işlərinin, əhalinin səmərəli istirahətinin təşkili üçün kütləvi tədbirlərin həyata keçirilməsi, yaşıllıq sahələrinə qulluq edilməsi, ərazinin süpürülməsi, işıqlandırılması və sair işlərin həyata keçirilməsinə sərf olunacaqdır.



Məişət tullantılarının yerləşdirilməsi, emalı, istifadəsi, utilizasiyası, zərərsizləşdirilməsi, basdırılması və bununla bağlı işlərin yerinə yetirilməsi üçün

2014-cü ilin dövlət büdcəsində "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə 25,3 milyon manat məbləğində vəsait nəzərdə tutulmuşdur.

Bakı şəhərindəki Dövlət Bayrağı Meydanı Kompleksinin vəziyyəti, fəaliyyəti, perspektiv inkişafı və mühafizəsi üzrə tədbirlərin yerinə yetirilməsinə dövlət nəzarəti həyata keçirmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinə 3,3 milyon manat vəsait nəzərdə tutulmuşdur.




Bu bölmənin xərclərində istilik təsərrüfatının zərərinin ödənilməsi üçün "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinə dövlət büdcəsindən 21,6 milyon manat vəsait (subsidiya) ayrılması nəzərdə tutulmuşdur.

2014-cü ildə kənd əhalisinin içməli suya olan tələbatının təmin edilməsi və su və kanalizasiya xətlərinin saz vəziyyətdə saxlanılması işlərinin maliyyələşdirilməsi məqsədi ilə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə 10,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Dövlət əhəmiyyətli su anbarlarının etibarlı mühafizəsini təmin etmək, ölkədə su anbarlarının texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirmək, ölkə ərazisində yerüstü, yeraltı su ehtiyatlarının, su obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqlərini aparmaq və ölkə ərazisində su ehtiyatlarının idarə olunmasını təkmilləşdirmək məqsədi ilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinə 2,0 mln. manat vəsait nəzərdə tutulmuşdur.

Bundan başqa respublikanın bir sıra yaşayış məntəqələrində quraşdırılmış su təchizatı qurğularının (modul tipli) istismarı və xidməti üzrə müvafiq bələdiyyələrə göstəriləcək maliyyə yardımı üçün 1,0 milyon manat vəsait nəzərdə tutulub.

2014-cü ilin dövlət büdcəsində Respublikanın 64 şəhər və rayon mərkəzində və qəsəbələrdə (Naxçıvan Muxtar Respublikası istina olmaqla) mənzil-kommunal xidmətlərinin göstərilməsi və digər abadlıq işlərinin yerinə yetirilməsi üçün 236,8 milyon manat məbləğində vəsait nəzərdə tutulmuşdur.



## 4.5.9. Yanacaq və enerji

2014-cü il dövlət büdcəsində Yanacaq və enerji xərcləri üçün 3,5 milyon manat vəsait ayrılmışdır.

Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrinin müəyyən olunması, istismara cəlb etməklə ölkənin enerji resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi, bərpa olunan enerji resurslarının mənbələrinin və bu sahənin inkişafı üçün Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan



Enerji Mənbələri üzrə Dövlət Agentliyinə müvafiq məbləğdə vəsait nəzərdə tutulmuşdur.

## 4.5.10. Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi

Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi xərclərinə 2014-cü il dövlət büdcəsində 562,9 milyon manat və ya 2013-cü illə müqayisədə 68,6 milyon manat və yaxud 13,9 faiz çox vəsait ayrılmışdır.




2014-cü il dövlət büdcəsinin Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi xərclərindən kənd təsərrüfatı köməkçi bölməsi üzrə 536,0 milyon manat, meşə təsərrüfatı köməkçi bölməsi üzrə 11,7 milyon manat, balıqçılıq və ovçuluq köməkçi bölməsi üzrə 2,8 milyon manat, ətraf mühitin mühafizəsi köməkçi bölməsi üzrə 4,5 milyon manat, hidrometeorologiya tədbirləri köməkçi bölməsi üzrə 7,9 milyon manat vəsait nəzərdə tutulmuşdur.

**Kənd təsərrüfatı, meşə təssərüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi xərcləri (cari) və onun artım sürəti (mln. manatla, faizlə)**




Bölmənin xərclərindən ərzaq təhlükəsizliyi, meliorasiya və irriqasiya sistemlərinin istismarı, meşələrin, qoruqların və milli parkların qorunması, respublikanın flora və faunasının qorunması və bu qəbildən olan digər tədbirlər maliyyələşdiriləcəkdir.

Dünya əhalisinin artımı, inkişaf etməkdə olan ölkələrdə zəif infrastruktur sistemi, investisiyaların məhdudluğu, iqlim dəyişiklikləri və digər amillər ərzaq təhlükəsizliyi məsələlərinin dünya üzrə qlobal məsələyə çevirmişdir.

Ərzaq təhlükəsizliyi və əhalinin keyfiyyətli qida məhsulları ilə təmin edilməsi aqrar sahədə davamlı istehsal prosesinin qurulması ilə kənd təsərrüfatı üzrə məhsuldarlığın artırılmasını tələb edir.

Bütün bu işlərin həyata keçirilməsi üçün fermer təsərrüfatlarına dövlət yardımı tələb olunur. Ərzaq təhlükəsizliyinin təmin edilməsi və əsas qida məhsulları ilə özünün tam təmin edilməsi üçün Azərbaycan dövləti tərəfindən məqsədyönlü tədbirlər həyata keçirilir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq Bölmə üzrə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədi ilə 2014-cü ilin dövlət büdcəsində 131,0 milyon manat proqnozlaşdırılmışdır.



Yardımların verilməsi üçün ötən illərin real göstəriciləri nəzərə alınmaqla 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş vəsait aşağıdakı istiqamətlərə yönəldiləcəkdir:

- kənd təsərrüfatı məhsulları istehsalçılarının məhsul istehsalı üçün istifadə etdikləri yanacağın, motor yağının və mineral gübrənin dəyərinin orta hesabla 50 faizin dövlət büdcəsi hesabına ödənilməsinə;

- buğda və çəltik istehsalçılarının maddi marağının artırılması və buğda və çəltik istehsalının stimullaşdırılmasına;

- taxıl istehsalının təşviqi üzrə tədbirlərin həyata keçirilməsinə.

Bu bölmə üzrə nəzərdə tutulan vəsaitlərin inzibati təsnifat üzrə bölgüsündə respublikada kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, istehsalçılara zəruri xidmətlərin göstərilməsi, aqrar bölmədə dövlət siyasətini həyata keçirmək məqsədilə Kənd Təsərrüfatı Nazirliyinə 14,0 milyon manat, bitki mühafizəsi və karantini, pestisidlərin, bioloji preparatların və digər bitki mühafizə vasitələrinin istifadəsi sahəsində dövlət nəzarətini həyata keçirmək məqsədilə Dövlət Fitosanitar Nəzarəti Xidmətinə 4,0 milyon manat, ölkə ərazisində heyvanların müxtəlif xəstəliklərdən qorunmasını və onların müalicəsini, əhalinin insan və heyvanlar üçün ümumi olan xəstəliklərdən qorunmasını, xarici dövlətlərdən keçə biləcək yoluxucu xəstəliklərdən qorunmasını təmin etmək, heyvan mənşəli məhsulların və xammalın zəruri baytarlıq-sanitariya keyfiyyətinə nəzarəti həyata keçirmək üçün Dövlət Baytarlıq Xidmətinə 22,7 milyon manat ayrılmışdır.



Kənd təsərrüfatı əkin sahələrinin suvarma suyu ilə təmin etmək, meliorasiya və irriqasiya sistemlərinin istismarını təşkil etmək, meliorasiya olunmuş torpaqlardan şor suların kənarlaşdırmaq, sel və daşqın sularına qarşı mübarizə tədbirlərini və bu sahədə digər tədbirləri həyata keçirmək məqsədilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 239,4 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə isə dövlət torpaq kadastrı, torpaqların monitorinqi, yerquruluşu, geodeziya, topoqrafiya, xəritəçəkmə, qravimetriya, torpaq islahatı, torpaqların münbitliyinin bərpası və artırılması, torpaq bazarının təşkili, torpaq-hüquq münasibətlərinin tənzimlənməsi, ərazi vahidlərinin müəyyən edilməsi və torpaqla bağlı digər işləri təşkil etmək və həyata keçirmək üçün 15,8 milyon manat nəzərdə tutulmuşdur.

Respublikada mövcud olan meşələrin qorunub saxlanması və yeni meşə massivlərinin salınması məqsədilə 11,7 milyon manat, balıq növlərinin ehtiyatının bərpa edilməsi və artırılması, qorunub saxlanılması məqsədilə 2,8 milyon, respublikanın flora və faunasının qorunması, mili parkların, dövlət təbiət qoruqlarının və dövlət təbiət yasaqlıqlarının saxlanması məqsədilə 4,5 milyon manat, hidrometeoroloji şərait və iqlim üzərində müşahidələr aparılması və onların təhlilinin həyata keçirilməsi, ümumiyyətlə atmosfer proseslərinin öyrənilməsi məqsədilə 7,9 milyon manat nəzərdə tutulmuşdur və bu vəsaitlərin sərəncamçısı kimi Ekologiya və Təbii Sərvətlər Nazirliyi çıxış edəcək.



Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi sahəsi üzrə maddi-texniki təminatının möhkəmləndirilməsi üçün 2014-cü ilin dövlət büdcəsində 50,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

### 4.5.11. Sənaye, tikinti və faydalı qazıntılar

Sənaye, tikinti və faydalı qazıntılar xərclərinə 2014-cü il dövlət büdcəsində 6282,0 milyon manat və ya 2013-cü illə müqayisədə 652,3 milyon manat və yaxud 9,4 faiz az vəsait ayrılmışdır. Bu xərclər üçün ayrılan vəsaitin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 31,3 faizə çatacaqdır.

Bu bölmədən Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə dövlət şəhərsalma işlərinin norma və qaydaların tərtibi, rayon planlaşdırma sxemləri və layihələrin tərtibi, şəhər və digər yaşayış məntəqələrinin baş planlarının və müfəssəl planlaşdırma layihələrin tərtibi işləri yerinə yetirmək üçün 2,8 milyon manat vəsait nəzərdə tutulub.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə də bu bölmədən 7,8 milyon manat vəsait nəzərdə tutulub ki, bu da geoloji-kəşfiyyat işlərinin aparılması üçün istifadə olunacaq.

Bundan başqa, bu bölmədən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə 9,2 milyon manat vəsait nəzərdə tutulub ki, həmin vəsaitlər hesabına işğaldan azad edilmiş, habelə əvvəllər hərbi poliqon kimi istifadə olunmuş ərazilərin partlamamış hərbi sursat və minalardan təmizlənməsi işlərinin yerinə yetirilməsi üçün istifadə olunacaqdır.

Bölmənin xərclərindən həmçinin dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri də maliyyələşdirlir. 2014-cü ildə bu xərclər 6260,0 milyon manat olmaqla dövlət investisiya proqramında nəzərdə tutulan layihələrin və tədbirlərin maliyyə təminatına yönəldiləcəkdir.

İnfrastruktur iqtisadi artımın, davamlı inkişafın, yeni iş yerlərinin yaradılmasının və yoxsulluğun azaldılmasının əsas hərəkətverici qüvvəsidir.Uyğun infrastrukturun olmaması ölkənin, istehsalın rəqabət qabiliyyətini aşağı salır, insan



resurslarının inkişafına mənfi təsir edir, əsas sosial xidmətlərin göstərilməsində problemlər yaradır və beləliklə dünya iqtisadiyyatında iştirakına məhdudiyyətlər törədir. Bütün bunlar isə iqtisadiyyatın uzunmüddətli perspektivdə davamlı artımına ciddi əngəllər törədə bilər. Güclü inkişaf etmiş infrastruktur şəbəkəsinə malik olmaq üçün isə mövcud olan şəbəkələrin yenilənməli və yeni şəbəkələrin qurulmalıdır. Son illər dünya maliyyə bazarında baş vermiş maliyyə böhranı xarici kapitalların digər ölkələrə yatırılmasında problemlər yaratmışdır. Lakin yuxarıda qeyd olunan məsələlərin həlli üçün daxili resurslar səfərbər edilmiş və artıq ölkəmizdə bir çox sahələr üzrə müasir standartlara cavab verən infrastruktur şəbəkələri yaradılmışdır.

Dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərcləri də daxil olmaqla, Dövlət İnvestisiya Proqramının aşağıdakı istiqamətlər üzrə layihələrə yönəldilməsi nəzərdə tutulur.

| 2014-cü il üçün Dövlət İnvestisiya Proqramının əsas istiqamətləri (mln. manatla) | | |
|---|---|---|
| ***İstiqamətlər*** | | ***Cəmi*** |
| **1.** | Cəmi | **7374,2** |
| **1.1.** | Dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu | **6260,0** |
| **1.2.** | Xarici kreditlər hesabına | **1114,2** |
| **2.** | Dövlət Neft Fondunun vəsaitləri | **1921,1** |

Ölkənin sosial-iqtisadi inkişaf prioritetlərinə uyğun olaraq 2014-cü ildə də, dövlət əsaslı vəsait qoyuluşu xərcləri ilk növbədə tamamlanması nəzərdə tutulan sənaye, nəqliyyat, energetika, kənd təsərrüfatı və digər infrastrukturların, sosial-mədəni təyinatlı müəssisələrin tikintisinə və yenidən qurulmasına, bərpasına, əsas vəsaitlərin alınmasına, ölkənin müdafiə, milli təhlükəsizlik, sərhəd və digər tədbirləri üzrə əsaslı işlərin görülməsinə, bir sıra proqramlar üzrə nəzərdə tutulmuş layihələrə, Azərbaycan Respublikasında keçiriləcək I Avropa Olimpiadası ilə bağlı tələb olunan müvafiq idman obyektlərinin tikintisinə, mövcud olanların yenidənqurulması və əsaslı təmirinə, zəruri avadanlıq və qurğuların alınmasına, təşkilatı məsələlərlə və digər zəruri hesab edilən dövlət əhəmiyyətli prioritet layihələrin və tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcəkdir.

Bu mənbədən qəza vəziyyətində olan məktəblərdə əsaslı təmir və tikinti işlərinin aparılması, respublikanın şəhər və rayonlarında qazlaşma proqramının həyata keçirilməsi, elektrik enerjisi təchizatı sisteminin yaxşılaşdırılması, su təchizatı və kanalizasiya sistemlərinin tikintisi və yenidən qurulması, Bakı kəndlərinin sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramının həyata keçirilməsi, ölkənin regionlarında kəndlərarası yolların tikintisi, yenidənqurulması və əsaslı təmiri və digər zəruri investisiya layihələrinin icrasının davam etdirilməsi üçün vəsait proqnozlaşdırılmışdır.

Xüsusi müdafiə və hərbi təyinatlı layihələr və tədbirlər üzrə nəzərdə tutulmuş vəsait nəzərə alınmadan 2014-cü il dövlət büdcəsinin əsaslı xərclərinin 384,0 mln. manatı dövlət büdcəsinin müvafiq xərc bölmələrində öz əksini tapmaqla, sosial-mədəni və məişət, inzibati, istehsalat təyinatlı layihələrin, bina və qurğuların, yolların yenidən qurulması və əsaslı təmirinə, qeyri-maliyyə aktivlərinin (əsas vəsaitlər, bina və tikililər, yaşayış və qeyri-yaşayış binaları) alınmasına yönəldiləcəkdir.

Növbəti ildə Dövlət Neft Fondunun vəsaitlərindən dövlət əhəmiyyətli investisiya layıhələrin maliyyələşdırılməsi üçün 1921,1 mln. manat vəsait yönəldiləcəkdir (qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsi, Samur Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi, Azərbaycan Respublikasının bütün yaşayış məntəqələrinə çıxış imkanı yaradan yüksək sürətli fiber-optik şəbəkənin qurulması layihəsi, Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsi, Neft-Qaz və Neftkimya Kompleksinin

tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirillməsi, Türkiyə Respublikasında "Star" neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi, TANAP layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi).

## 4.5.12. Nəqliyyat və rabitə

Nəqliyyat və rabitə xərclərinə 2014-cü il dövlət büdcəsində 121,4 milyon manat və ya 2013-cü illə müqayisədə 9,8 milyon manat və ya 8,7 faiz çox vəsait ayrılmışdır. Bu xərclər üçün ayrılan vəsaitin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 0,6 faiz təşkil edəcəkdir.

2014-cü il dövlət büdcəsindən Nəqliyyat və rabitə bölməsi üzrə nəqliyyata 82,6 milyon manat, rabitə xərclərinə isə 38,8 milyon manat vəsait yönəldiləcəkdir.

Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə 2014-cü ilin dövlət büdcəsi layihəsində 32,5 milyon manat vəsait proqnozlaşdırılmışdır.

Həmin vəsaitlər 2014-cü ildə ölkə ərazisində avtomobil nəqliyyatı üzrə dövlət tənzimlənməsinin həyata keçirilməsi, Bakı şəhərində nəqliyyat əməliyyatlarının intellektual idarə edilməsi sisteminin yaradılması və sair bu kimi tədbirlərə, Bakı şəhərində yol ötürücüsü və körpülərin saxlanılması, küçələrin və prospektlərin istismarına və təmirinə xərclənməsi nəzərdə tutulmuşdur.



Hal-hazırda bu gün Bakı Metropolitenində gediş haqqı 20 qəpikdir. Lakin real olaraq hər bir sərnişinin daşınması nisbətən baha başa gəlir. Dövlət Bakı Metropolitenindən əhalinin ən çox aztəminatlı hissəsinin sıx istifadə etdiyini nəzərə alaraq real gediş haqqı xərcinin qalan hissəsinin ödənilməsini öz üzərinə götürmüşdür. Bu məqsədlə bu bölmədən Bakı Metropolitenınə onun fəaliyyətinin tənzimlənməsi üçün 36,0 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur.



“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Naxçıvan Muxtar Respublikasına edilən aviareyslərə görə yaranmış zərərinin və Böyük Vətən müharibəsi əlillərinin və iştirakçılarının, habelə onlara bərabər tutulan şəxslərin MDB dövlətlərinə nəqliyyatda gediş güzəştlərinin ödənilməsi məqsədi ilə 2014-cü ilin dövlət büdcəsində Cəmiyyətə 10,0 milyon manat subsidiya nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə 2014-cü ildə 3,9 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, həmin vəsait universal poçt rabitəsi xidmətinin göstərilməsi ilə bağlı milli poçt operatoruna dəyən zərərin kompensasiya edilməsi və informasiya ehtiyatları və

fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinin aparılması məqsədi ilə istifadə olunacaqdır.

Azərbaycan Respublikasında dövlət informasiya ehtiyatları reyestrinin formalaşdırılması, aparılması, istifadəsi və mühafizəsinin hüquqi və təşkilati tənzimlənməsi və ona nəzarətin həyata keçirilməsi məqsədi ilə 30,0 milyon manat vəsait nəzərdə tutulub.

Azərbaycana məxsus olan “Azərspace-1” telekommunikasiya peykinin orbitdə saxlanılması, idarə olunması və istismarı işlərinin həyata keçirilməsi, qlobal informasiya məkanına inteqrasiyanın genişləndirilməsi ilə bağlı xərclərin maliyyələşdirilməsi üçün “Azərkosmos” Açıq Səhmdar Cəmiyyətinə 4,0 milyon manat vəsait nəzərdə tutulub.




## 4.5.13. İqtisadi fəaliyyət

İqtisadi fəaliyyət xərclərinə 2014-cü il dövlət büdcəsində 328,2 milyon manat və ya 2013-cü illə müqayisədə 52,4 milyon manat və ya 19,0 faiz çox vəsait ayrılmışdır. Bu xərclər üçün ayrılan vəsaitin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 1,6 faizə çatacaqdır.

Funksional təsnifata uyğun olaraq 2014-cü il dövlət büdcəsindən bölmə üzrə iqtisadi və kommersiya fəaliyyətinə 242,5 milyon manat, iqtisadi fəaliyyətin digər sahələrinə 83,7 milyon manat, iqtisadi fəaliyyət sahələri üzrə təcrübə və tətbiqi tədqiqatlara 2,0 milyon manat vəsait yönəldiləcəkdir.

İqtisadi fəaliyyət üzrə xərclərin bölgüsü aşağıdakı kimidir:

| | Məbləğ, min manatla |
|---|---|
| Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu (sahibkarlığın inkişafı ilə bağlı xərclər) | 150 000,0 |
| Azərbaycan Respublikasının Mərkəzi Bankı (Azərbaycan İpoteka Fondunun nizamnamə kapitalının artırılması ilə bağlı xərclər) | 40 000,0 |
| "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması ilə bağlı xərclər | 35 000,0 |
| Avropa Birliyin qrantı hesabına aparılan xərclər | 20 000,0 |
| Dövlət müəssisələrinin fəaliyyəti ilə əlaqədar zərərin və digər öhdəliklərin tənzimlənməsi və maliyyə sağlamlaşdırılması tədbirləri ilə bağlı xərclər | 40 000,0 |
| Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi (Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması ilə bağlı xərclər) | 7 500,0 |

| | Məbləğ, min manatla |
|---|---|
| Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi (aqrar sektora kreditlərin verilməsi ilə bağlı xərclər) | 5 000,0 |
| İqtisadi fəaliyyət sahələri üzrə təcrübə və tətbiqi tədqiqatlar | 2 000,0 |
| İqtisadi islahatların keçirilməsi ilə bağlı xərclər | 150,2 |
| Xüsusi iqtisadi zonaların və texnoparkların idarəedilməsi | 3 506,7 |
| Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tabeliyində Texnologiyaların İnkişafı Fondu | 5 000,0 |
| Maliyyə sağlamlaşdırılması tədbirləri ilə bağlı xərclər | 20 000,0 |

Azərbaycan Respublikası Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fonduna güzəştli ipoteka kreditlərinin verilməsi üçün 40,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

2014-cü ilin dövlət büdcəsində “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinə də bu bölmədən 2013-cü il səviyyəsində, yəni 35,0 milyon manat vəsait nəzərdə tutulub ki, həmin vəsait hesabına kənd təsərrüfatı texnikasının, texnoloji avadanlıqların alınaraq hüquqi və fiziki şəxslərə lizinqə verilməsi və ya lizinq yolu ilə satılması, habelə həmin vəsait hesabına əsasən idxal olunan pestisidlərin, aqrokimyəvi maddələrin güzəştlə satılması həyata keçiriləcəkdir.



2014-cü ildə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə sahibkarlığın inkişafı ilə bağlı xərclər üçün 150,0 milyon manat, iqtisadi islahatların həyata keçirilməsi xərcləri üçün 150,2 min manat vəsait nəzərdə tutulmuşdur.

2014-cü ilin dövlət büdcəsində sahibkarlığın inkişafı ilə bağlı xərclər nəzərdə tutulan vəsaitlər əsasən ölkədə, xüsusi ilə regionlarda sahibkarlığın, o cümlədən, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, onlara güzəştli kreditlərlə maliyyə dəstəyinin verilməsi, müasir texnologiyalara əsaslanan istehsal və emal sahələrinin inkişafının, idxalı əvəz edən rəqabətə davamlı məhsulların istehsalını stimullaşdıran layihələrinin maliyyələşdirilməsi üçün istifadə olunacaq.

Bundan başqa bu bölmədən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi üçün 8,0 milyon manat vəsait nəzərdə tutulub.

Fəaliyyətə başladıqları dövrdən (2014-cü il də nəzərə alınmaqla) dövlət büdcəsindən ayrılan və digər mənbələrdən daxil olan vəsaitlər hesabına Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunda üst-üstə 1488,0 mln. manat (dövlət büdcəsi hesabına 831,0 mln. manat, verilmiş kreditlərin qaytarılmasından daxil olan vəsait hesabına 657,0 mln. manat), “Aqrolizinq” Açıq

Səhmdar Cəmiyyətində 643,2 mln. manat (dövlət büdcəsindən ayrılan vəsait 453,4 mln. manat, Cəmiyyətin dövriyəsindən daxil olan vəsait 189,8 mln. manat), Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyində 104,4 mln. manat (dövlət büdcəsindən ayrılan vəsait 64,0 mln. manat, verilmiş kreditlər üzrə faktiki qaytarılmış əsas borcun məbləği 40,4 mln. manat) və Azərbaycan Respublikasının İpoteka Fondunda 216,0 mln. manat vəsait ehtiyatı yaranacaqdır.

İnformasiya-kommunikasiya texnologiyaları sahəsində dövlət siyasətinin həyata keçirilməsinə yardım etmək, sahibkarlıq fəaliyyətini dəstəkləmək, innovasiya və elmi-tədqiqat layihələrini stimullaşdırmaq, müasir infrastrukturun inkişafına təkan vermək, kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə dəstəyi göstərmək, bu sahəyə yerli və xarici investisiyaları cəlb etmək məqsədi ilə Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tabeliyində Texnologiyaların İnkişafı Fonduna dövlət büdcəsindən 5,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.



## 4.5.14. Əsas bölmələrə aid edilməyən xidmətlər

Əsas bölmələrə aid edilməyən xidmətlərə 2014-cü il dövlət büdcəsində 2670,0 milyon manat və ya 2013-cü illə müqayisədə 211,6 milyon manat və ya 7,3 faiz az vəsait ayrılmışdır.

| | Məbləğ, milyon manat | Dövlət büdcəsində xüsusi çəkisi, faizlə |
|---|---|---|
| **Əsas bölmələrə aid edilməyən xidmətlər** | 2 670,0 | 13,3 |
| **o cümlədən:** | | |
| **Məqsədli büdcə fondları** | 538,0 | 2,7 |
| **Ehtiyat fondları** | 710,0 | 3,5 |
| **ondan:** | | |
| ***- Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu*** | *367,0* | *1,8* |
| ***- Dövlət büdcəsinin Ehtiyat Fondu*** | *343,0* | *1,7* |
| **Əsas bölmələrə aid edilməyən sair xərclər** | 1 422,0 | 7,1 |
| **ondan:** | | |
| ***- Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər*** | *1172,0* | *5,9* |
| ***- ölkədə baş vermiş fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər*** | *25,0* | *0,1* |
| ***- digər xidmətlər üzrə xərclər*** | *225,0* | *1,1* |

Dövlət büdcəsinin tərkib hissəsi olmaqla "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna 2014-cü ildə 214,0 milyon manat vəsaitin xərclənməsi proqnozlaşdırılır.

"Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun vəsaiti əsasən ölkə ərazisində respublika və yerli əhəmiyyətli avtomobil yollarının və onlarla əlaqədar mühəndis qurğularının saxlanılması və istismarı ilə bağlı xərclərin maliyyələşdirilməsinə yönəldiləcək.

Ehtiyat fondları dövlət büdcəsində nəzərdə tutulmayan xərclər, habelə dövlət və yerli əhəmiyyətli tədbirlərin həyata keçirilməsi üçün yaradılmış maliyyə mənbələridir. Ehtiyat fondlarının tərkibinə dövlət büdcəsinin Ehtiyat Fondu və Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondları daxildir. Mövcud qanunvericiliyə görə dövlət büdcəsinin Ehtiyat Fondunun həcmi dövlət büdcəsi gəlirlərinin 5 faizindən, Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondunun həcmi isə dövlət büdcəsi gəlirlərinin 2 faizindən artıq olmamalıdır. 2014-cü il dövlət büdcəsində dövlət büdcəsinin Ehtiyat Fondu üzrə 343,0 milyon manat, Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu üzrə isə 367,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Əsas bölmələrə aid edilməyən sair xərclərdə digər bölmələrdə öz əksini tapmamış xərclər daxildir. Bu tədbirlərin sırasına xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər, İnsan hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin məhkəmənin qərarlarının icrası ilə bağlı xərclər, fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər, beynəlxalq və respublika səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər, dövlət atributlarının, biometrik pasportların hazırlanması və lisenziya blanklarının çap edilməsi ilə bağlı xərclər, dövlətdən sosial yardım alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası ilə bağlı xərclər, Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması və digər işlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi ilə bağlı xərclər, dövlət maddi və material ehtiyatlarının yaradılması ilə bağlı xərclər və digər xərclər aiddir.



## 4.6. 2014-cü il dövlət büdcəsinin yerli gəlir və xərcləri

2014-cü il dövlət büdcəsinin tərkib hissəsi olan yerli gəlirlər 782,4 milyon manat, yerli xərcləri 1629,4 milyon manat həcmində olmaqla, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən 847,0 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

2014-cü ildə rayon və şəhərlərin vergi potensialının artırılması, onların ərazilərində fəaliyyət göstərən və mərkəzləşmiş qaydada vergi uçotunda olan vergi ödəyicilərinin dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirlərinə ödəyəcəkləri vergi və digər ödənişlərin 2014-cü ildə tam (mənfəət vergisi istisna olmaqla) məbləğdə rayon və şəhərlərin yerli gəlirlərinə daxil edilməsi nəzərdə tutulur. Bu, rayon və şəhərlərin inkişafı və iqtisadi durumu haqqında real vəziyyəti qiymətləndirməyə imkan verməklə yanaşı, onların mərkəzdən iqtisadi asılılığının tədricən azalmasına imkan verəcəkdir. Rayon və şəhərlərin sürətli inkişafı üçün dövlət tərəfindən yaradılan şəraitin məntiqi nəticəsi olaraq 2014-cü ildə yerli xərcləri tənzimləmək üçün dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən ayrılan maliyyə yardımının (dotasiyanın) yerli xərclərin tərkibində xüsusi çəkisi 2013-cü illə müqaisədə 1,8 faiz-bənd faiz azalaraq 52,0 faiz təşkil edəcəkdir. 2014-cü ildən Sumqayıt, Şirvan şəhərləri və Abşeron rayonu ilə yanaşı, Mingəçevir şəhəri və İmişli rayonu da xərclərini öz gəlirləri hesabına təmin edəcəkdir.

(min manatla)

| № | Adları | Gəlirlər | Xərclər | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait |
|---|---|---|---|---|
| | **Şəhərlər:** | | | |
| 1 | Bakı | 222 216,0 | 222 216,0 | |
| 2 | Gəncə | 39 294,0 | 65 891,0 | 26 597,0 |
| 3 | Sumqayıt | 76 103,0 | 76 103,0 | |
| 4 | Lənkəran | 15 348,0 | 37 762,0 | 22 414,0 |
| 5 | Şəki | 20 526,0 | 38 705,0 | 18 179,0 |
| 6 | Yevlax | 13 084,0 | 24 499,0 | 11 415,0 |
| 7 | Mingəçevir | 32 727,0 | 32 727,0 | |
| 8 | Şirvan | 17 217,0 | 17 217,0 | |
| 9 | Naftalan | 2 488,0 | 3 867,0 | 1 379,0 |
| 10 | Xankəndi | | | |
| | **Rayonlar:** | | | |
| 11 | Abşeron | 32 712,0 | 32 712,0 | |
| 12 | Ağcabədi | 6 802,0 | 25 912,0 | 19 110,0 |
| 13 | Ağdam | 5 338,0 | 38 489,0 | 33 151,0 |

(min manatla)

| № | Adları | Gəlirlər | Xərclər | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait |
|---|---|---|---|---|
| 14 | Ağdaş | 5 635,0 | 21 671,0 | 16 036,0 |
| 15 | Ağstafa | 4 024,0 | 17 521,0 | 13 497,0 |
| 16 | Ağsu | 3 389,0 | 14 896,0 | 11 507,0 |
| 17 | Astara | 5 594,0 | 20 014,0 | 14 420,0 |
| 18 | Balakən | 3 136,0 | 17 332,0 | 14 196,0 |
| 19 | Beyləqan | 6 766,0 | 17 020,0 | 10 254,0 |
| 20 | Bərdə | 10 288,0 | 30 868,0 | 20 580,0 |
| 21 | Biləsuvar | 4 414,0 | 16 496,0 | 12 082,0 |
| 22 | Cəbrayıl | 1 380,0 | 12 972,0 | 11 592,0 |
| 23 | Cəlilabad | 7 266,0 | 32 447,0 | 25 181,0 |
| 24 | Daşkəsən | 2 574,0 | 12 122,0 | 9 548,0 |
| 25 | Füzuli | 6 024,0 | 30 431,0 | 24 407,0 |
| 26 | Gədəbəy | 4 054,0 | 25 932,0 | 21 878,0 |
| 27 | Goranboy | 4 466,0 | 24 898,0 | 20 432,0 |
| 28 | Göyçay | 8 447,0 | 23 036,0 | 14 589,0 |
| 29 | Göygöl | 4 077,0 | 15 646,0 | 11 569,0 |
| 30 | Hacıqabul | 4 498,0 | 11 339,0 | 6 841,0 |
| 31 | Xaçmaz | 22 457,0 | 31 878,0 | 9 421,0 |
| 32 | Xızı | 1 699,0 | 5 921,0 | 4 222,0 |
| 33 | Xocalı | 368,0 | 3 833,0 | 3 465,0 |
| 34 | Xocavənd | 738,0 | 5 329,0 | 4 591,0 |
| 35 | İmişli | 20 964,0 | 20 964,0 | |
| 36 | İsmayıllı | 5 298,0 | 21 028,0 | 15 730,0 |
| 37 | Kəlbəcər | 1 402,0 | 22 153,0 | 20 751,0 |
| 38 | Kürdəmir | 6 756,0 | 18 929,0 | 12 173,0 |
| 39 | Qax | 3 216,0 | 17 601,0 | 14 385,0 |
| 40 | Qazax | 5 490,0 | 21 143,0 | 15 653,0 |
| 41 | Qəbələ | 10 124,0 | 20 619,0 | 10 495,0 |
| 42 | Qobustan | 2 442,0 | 8 878,0 | 6 436,0 |
| 43 | Quba | 16 038,0 | 31 777,0 | 15 739,0 |
| 44 | Qubadlı | 2 794,0 | 10 819,0 | 8 025,0 |
| 45 | Qusar | 6 144,0 | 19 923,0 | 13 779,0 |

(min manatla)

| № | Adları | Gəlirlər | Xərclər | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait |
|---|---|---|---|---|
| 46 | Laçın | 1 986,0 | 22 247,0 | 20 261,0 |
| 47 | Lerik | 2 114,0 | 18 093,0 | 15 979,0 |
| 48 | Masallı | 8 296,0 | 28 532,0 | 20 236,0 |
| 49 | Neftçala | 5 104,0 | 16 323,0 | 11 219,0 |
| 50 | Oğuz | 2 700,0 | 11 671,0 | 8 971,0 |
| 51 | Saatlı | 7 022,0 | 19 549,0 | 12 527,0 |
| 52 | Sabirabad | 8 734,0 | 27 833,0 | 19 099,0 |
| 53 | Salyan | 8 202,0 | 25 725,0 | 17 523,0 |
| 54 | Samux | 2 726,0 | 13 233,0 | 10 507,0 |
| 55 | Siyəzən | 3 432,0 | 8 558,0 | 5 126,0 |
| 56 | Şabran | 4 524,0 | 11 865,0 | 7 341,0 |
| 57 | Şamaxı | 7 082,0 | 21 186,0 | 14 104,0 |
| 58 | Şəmkir | 10 588,0 | 40 939,0 | 30 351,0 |
| 59 | Şuşa | 1 360,0 | 7 400,0 | 6 040,0 |
| 60 | Tərtər | 4 448,0 | 16 382,0 | 11 934,0 |
| 61 | Tovuz | 6 974,0 | 34 875,0 | 27 901,0 |
| 62 | Ucar | 4 160,0 | 16 405,0 | 12 245,0 |
| 63 | Yardımlı | 2 023,0 | 14 573,0 | 12 550,0 |
| 64 | Zaqatala | 6 796,0 | 25 546,0 | 18 750,0 |
| 65 | Zəngilan | 2 160,0 | 9 426,0 | 7 266,0 |
| 66 | Zərdab | 3 206,0 | 14 582,0 | 11 376,0 |

## 4.7. Dövlət büdcəsinin kəsiri

2014-cü il dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi üçün 1697,0 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da ÜDM-in 2,9 faizini təşkil edir.

Dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi özəlləşdirmədən, daxili və xarici borclanmadan, xarici qrantlar və 2014-cü il 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı hesabına həyata keçiriləcəkdir.

Qeyri-neft gəlirlərinin artımı hesabına dövlət büdcəsi kəsirinin idarə olunan səviyyədə saxlanılmasına nail olmaq 2014-cü ildə qarşıda duran prioritet vəzifələrdəndir.

## 5. 2014-cü il icmal büdcə

Azərbaycan Respublikasının 2014-cü il icmal büdcəsinin gəlirləri 21985,9 milyon manat, xərcləri 24444,0 milyon manat nəzərdə tutulmuşdur.

İcmal büdcənin tərkib hissəsi olan məcburi dövlət sosial sığortası, əmək pensiyaları sahəsində idarəetməni həyata keçirən Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin xərcləri 2928,5 milyon manat proqnozlaşdırılır.

Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun xərclərinin 57,5 faizi və ya 1683,3 milyon manatı dövlət büdcəsindən birbaşa transfert və büdcə təşkilatlarından sosial ayırmalar hesabına örtüləcəkdir, o cümlədən dövlət büdcəsindən birbaşa transfert 1142,0 milyon manat, büdcə təşkilatlarından sosial ayırmalar 541,3 milyon manat təşkil edəcəkdir.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2014-cü il büdcəsinin xərcləri 11291,8 milyon manat, o cümlədən dövlət büdcəsinə 9337,0 milyon manat transfert, bir sıra dövlət əhəmiyyətli investisiya layihələrinin maliyyələşdirilməsinə 1954,8 milyon manat vəsait nəzərdə tutulmuşdur.

İcmal büdcənin tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlir və xərcləri bərabər olaraq 350,5 mln. manat proqnozlaşdırılır. Xərclərin 19,1 faizi və ya 66,8 mln. manatı Naxçıvan Muxtar Respublikasının öz gəlirləri, 80,9 faizi və ya 283,7 mln. manatı dövlət büdcəsindən ayrılan dotasiya hesabına formalaşmışdır.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən nəqliyyat, enerji, kənd təsərrüfatı, qaz və su təhcizatı, sosial-mədəni təyinatlı infrastrukturların tikintisi və yenidən qurulması üçün 2014-cü il dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu xərclərindən müvafiq məbləğdə vəsait ayrılmışdır.

## 6. Nəticə

2014-cü il dövlət büdcəsi müxtəlif mənbələrdən daxil olan vəsaitlərin ədalətli şəkildə bölüşdürülməsi yolu ilə Azərbaycan Respublikası Prezidentinin Azərbaycan dövlətinin inkişafı üçün müəyyən etdiyi strateji xəttə və prioritet inkişaf vəzifələrinə uyğun olaraq sosial məsələlərin həllinə, əhalinin maddi-rifah halının, məşğulluq səviyyəsinin və sosial müdafiəsinin artırılmasına, ölkənin müdafiə potensialının gücləndirilməsinə, onun iqtisadi, enerji, nəqliyyat, ərzaq və ekoloji təhlükəsizliyinin təmin edilməsinə, ölkə regionlarının tarazlı inkişafına, sahibkarlığa dəstək və iqtisadiyyatın digər mühüm sahələrininm inkişafına dair qəbul olunmuş məqsədli dövlət proqramlarının və tədbirlərinin maliyyələşdirilməsinə təminat yaradacaqdır.

# 7. Anlayışlar və terminlər

Ümumi daxili məhsul — bir il ərzində iqtisadiyyatda (ölkə daxilində) istehsal olunan bütün mal və xidmətlərin məcmu bazar qiymətidir.

büdcə—Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədi;

büdcə təsnifatı—dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin, yerli büdcələrin və büdcədənkənar dövlət fondlarının gəlirlərinin, xərclərinin və maliyyələşmə mənbələrinin funksional, iqtisadi, inzibati və digər prinsiplər əsasında qruplaşdırılması;

büdcə ili—yanvar ayının 1-dən dekabr ayının 31-dək olan bir illik dövr;

təsdiq olunan büdcə ayırmaları—qanunvericiliklə təsdiq olunan və dövlət büdcəsində, Naxçıvan Muxtar Respublikasının büdcəsində və yerli büdcələrdə maddələr üzrə xərclənə biləcək vəsaitin yuxarı həddi;

büdcədənkənar dövlət fondları — qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən hüquqi şəxs qismində təsis edilmiş və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondları.

dövlət büdcəsindən və Naxçıvan Muxtar Respublikasının büdcəsindən kənarda əməliyyatlar—müvafiq icra hakimiyyəti orqanlarının və büdcə təşkilatlarının qanunvericiliklə müəyyən edilmiş qaydada büdcədən kənarda əldə etdikləri gəlirləri və həyata keçirdikləri xərcləri üzrə maliyyə əməliyyatları;

icmal büdcə—dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin (büdcədənkənar əməliyyatlar da daxil olmaqla) və büdcədənkənar dövlət fondlarının gəlir və xərclərini funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində əks etdirən maliyyə sənədi;

büdcə kəsiri (defisit)—büdcə xərclərinin gəlirlərlə təmin olunmayan məbləği;

büdcə artıqlığı (profisit)—büdcə gəlirlərinin büdcə xərclərindən artıq olan məbləği;

dövlət büdcəsinin kassa icrası—büdcə gəlirlərinin büdcəyə daxilolmasını və xərclərinin büdcə təsnifatına uyğun olaraq xəzinədarlıq vasitəsilə ünvanlı istifadəsini təmin edən icra mexanizmi;

büdcə gəlirləri—Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalar;

büdcə xərcləri—büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və yerli büdcələrdən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsait;

mərkəzləşdirilmiş gəlir—dövlət büdcəsində müəyyən edilən normativlərə uyğun olaraq dövlət büdcəsi gəlirlərindən yerli gəlirlər çıxıldıqdan sonra formalaşan gəlir;

mərkəzləşdirilmiş xərc—büdcə təsnifatına uyğun olaraq, dövlət büdcəsində nəzərdə tutulan müvafiq orqanların fəaliyyətinin və tədbirlərin maliyyələşdirilməsi ilə bağlı xərclər;

yerli gəlir—dövlət büdcəsində müəyyən edilən normativlər əsasında formalaşan ayrı-ayrı şəhər və rayonlar üzrə gəlir;

yerli xərc—büdcə təsnifatına uyğun olaraq, maliyyələşdirilməsi yerli gəlirlər və mərkəzləşdirilmiş gəlirlərdən ayrılan vəsait hesabına həyata keçirilən xərclər;

büdcə ssudaları—dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə, yerli büdcələrdən bələdiyyə təşkilatlarına qaytarılmaq şərti ilə il ərzində müəyyən müddətə verilən maliyyə vəsaiti;

dotasiya—dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə onların gəlir və xərclərini tənzimləmək məqsədilə əvəzsiz verilən maliyyə vəsaiti;

qrant—daxili və xarici mənbələr hesabına əvəzsiz verilən məqsədli maliyyə yardımı;

subvensiya—məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaiti;

subsidiya—dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə əvəzsiz verilən maliyyə vəsaiti;

məqsədli büdcə fondları—dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrin tərkibində konkret tədbirlərin həyata keçirilməsi üçün formalaşan və istifadə edilən pul vəsaiti;

sekvestr—dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrin gəlirləri, həmçinin dövlət büdcəsinin kəsirinin (defisitin) maliyyələşmə mənbələri üzrə daxilolmalar yerinə yetirilmədikdə, müdafiə olunmuş xərc maddələri istisna olmaqla, büdcə ilinin qalan ayları üzrə xərclərin müəyyən olunmuş qaydada ixtisarı;

müdafiə olunan xərc maddələri—büdcə ili ərzində maliyyələşdirilməsinə sekvestr tətbiq olunmayan, qanunvericiliklə müəyyən edilmiş büdcə xərcləri;

dövlət borcu - Azərbaycan Respublikasının adından bağlanılmış müqavilələrin öhdəlikləri üzrə ödənilməli olan borc;

toplu maliyyə balansı—konkret dövr üçün ölkədə maliyyə vəsaitlərinin yaranma mənbələri və istifadə istiqamətləri barədə məlumatları özündə əks etdirən maliyyə sənədi.

büdcə təşkilatı—maliyyələşdirilməsi bilavasitə Azərbaycan Respublikasının dövlət büdcəsi və Naxçıvan Muxtar Respublikasının büdcəsi hesabına həyata keçirilən idarə və təşkilatlar;

büdcənin tərtibi prosesində iştirak edən təşkilatlar—mərkəzi və yerli icra hakimiyyəti orqanları və onların struktur bölmələri, büdcə gəlirlərinin icrasını təmin edən orqanlar, dövlət büdcəsindən maliyyələşən və (və ya) maliyyə yardımı alan təşkilatlar, büdcədənkənar dövlət fondları və vergi ödəyiciləri, zərurət yarandıqda, bələdiyyələr.

# 8. Əks əlaqə

Hörmətli oxucular!

Sizə təqdim olunmuş "Azərbaycan Respublikasının 2014-cü il dövlət və icmal büdcələri üzrə Vətəndaşın büdcə bələdçisi" ilə bağlı rəylərinizi, təkliflərinizi aşağıdakı ünvana göndərə bilərsiniz.

Azərbaycan Respublikası Maliyyə Nazirliyi,
Bakı şəhəri, S.Vurğun küç, 83, AZ-1022

f.ganjaliyev@maliyye.gov.az